18 noyabr 2022 №85 (1958) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi təsdiq olunub



Prezident İlham Əliyev noyabrın 16-da "Azərbaycan Respublikası Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərman imzalayıb. Fərmanla Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi təsdiq edilib.

Fərmanda Mədəniyyət Nazirliyinə Azərbaycan Respublikası Kino Agentliyi dövlət qeydiyyatına alındıqdan sonra agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini bir ay müddətində təsdiq etmək tapşırılıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsi ölkə başçısının 2022-ci ilin 20 aprelində imzaladığı fərmanla yaradılıb.

səh. 2

## XİN Fransaya nota verib

Noyabrın 16-da Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili Jülyen Lö Lan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Diplomata noyabrın 15-də Fransa Senatında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamə ilə bağlı XİN-in etiraz notası təqdim edilib.

XİN-in Mətbuat xidməti idarəsindən bildiriblər ki, Fransa Senatında qəbul edilmiş tamamilə həqiqətdən uzaq, yalan və iftira dolu müddəaların əks olunduğu qətnamənin Azərbaycan tərəfindən qətiyyətlə rədd edildiyi diqqətə çatdırılıb.

Qətnamənin açıq təxribat xarakteri daşıdığı və sülh prosesinə öz töhfəsini vermək iddiasında olan Fransanın növbəti dəfə ermənipərəst, qərəzli və birtərəfli mövqeyini bariz şəkildə nümayiş etdirdiyi bildirilib.

davamı səh. 2-də

## Fikrət Əmirovun 100 illiyinə həsr olunan festivalın növbəti konserti

Dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən keçirilən musiqi festivalı davam edir.




12-23 noyabr tarixini əhatə edən festival çərçivəsində noyabrın 17-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında daha bir konsert proqramı təqdim olundu.

Musiqişünas, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı qonaqları salamlayaraq dedi ki, bu axşam təqdim olunacaq musiqi əsərləri hər birimizin könlünü oxşayacaq. Çünki Fikrət Əmirov bu əsərləri sevə-sevə qələmə alıb. Onun simfonik muğamları və "Nizami" simfoniyası dünyanın məşhur dirijorlarının bədii rəhbərliyi ilə orkestrlər tərəfindən ifa olunub.

Sonra konsert proqramı təqdim olundu. F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər və baş dirijor – Xalq artisti Ağaverdi Paşayev, musiqi rəhbəri – Mahir Ordubadi) müşayiəti ilə solistlər – Xalq artisti Simarə İmanova, Əməkdar artistlər Nigar Şahmuradova, Günel Şeyxova, Nigar Rzayeva (hər üçü rəqqasə), xanəndələr Almaz Orucova, Ehtiram Hüseynov, Nuriyyə Hüseynova, ifaçılar Nurlan Əzizbəyli, Taleh Yəhyayev, Vəfa Vəzirova, Nurlana Abdullayeva, Rəvanə Qurbanova və Rauf Məsimov (kamança) çıxış etdilər.

Orkestr ilk olaraq F.Əmirovun "Gözün aydın" musiqili komediyasından rəqsi ifa etdi. Sonra "Gülərəm, gülsən", "Böyük dayaq" kinofilminə yazdığı "Pərişanın mahnısı", "Reyhan", "Bir gül seçdim", H.Cavidin "Şeyx Sənan" pyesinin tamaşasına yazdığı "Kor ərəbin mahnısı", "Mən səni araram", xalq mahnısı "Gözəlim sənsən" (F.Əmirovun işləməsi ilə), "Laylay", "Göygöl" və "Gülür əllər" təqdim edildi.

Musiqi axşamında bütün çıxışlar alqışlarla qarşılandı.

# Azad torpaqlara Böyük Qayıdış Proqramı təsdiqlənib

### 2026-cı ilədək dövrü əhatə edən Dövlət Proqramında mədəniyyət və mədəni irslə bağlı tədbirlər planı da nəzərdə tutulub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair 1-ci Dövlət Proqramı (2022-2026-cı illər) təsdiq edilib. Prezident İlham Əliyev noyabrın 16-da bununla bağlı sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası 2020-ci ilin 44 günlük Vətən müharibəsində öz torpaqlarını azad etməklə tarixi inkişafının yeni mərhələsinə qədəm qoyub. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (Prezidentin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq olunub) yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Qeyd olunur ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı sözügedən Strategiyanın icrasını təmin etmək məqsədilə hazırlanıb.

Sərəncamda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahına Dövlət Proqramının səmərəli icrasının təmin edilməsi məqsədilə zəruri tədbirlər görmək tapşırılıb.

Nazirlər Kabineti Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və hesabatlılığı həyata keçirmək, görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.



Qeyd edək ki, Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, məqsədlər və onlara uyğun hədəf göstəriciləri, prioritet istiqamətlər, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər əksini tapıb. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb.

Prezidentin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə təsdiq edilmiş iqtisadi rayonların yeni bölgüsünə uyğun olaraq Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

Dövlət Proqramının Tədbirlər Planı (2022–2026-cı illər) 6 prioritet istiqaməti əhatə edir. Hər prioritet üzrə müvafiq fəaliyyət istiqamətləri nəzərdə tutulub.

2-ci prioritet istiqamət – "Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini" üzrə fəaliyyət istiqamətlərindən biri azad edilmiş ərazilərdə mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası ilə bağlıdır. Bu fəaliyyət istiqamətinin əsas icraçı qurumu Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir.

mövzuya dair daha ətraflı səh. 4-də

## Bakı Caz Festivalı davam edir

Xəbər verdiyimiz kimi, 15-20 noyabr tarixində Bakı növbəti caz festivalına ev sahibliyi edir. Mədəniyyət Nazirliyinin dəstəyi və "Paşa Holdinq"in baş sponsorluğu ilə keçirilən XVII Bakı Beynəlxalq Caz Festivalı zəngin proqramı ilə müxtəlif ölkələrdən məşhur ifaçı və qrupları sənətsevərlərlə görüşdürür.

Festivalın açılış mərasimi noyabrın 15-də ADA Universitetində keçirilib. Mərasimdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, mədəniyyət və incəsənət xadimləri, caz musiqisi həvəskarları iştirak ediblər.




Konsertdən öncə Bakıda caz festivallarının tarixinə nəzər salınıb. Qeyd olunub ki, Bakıda ilk dəfə Caz festivalı sovet dövründə, 1967-ci ildə keçirilib. Diqqətə çatdırılıb ki, müstəqillik dövründə əsası qoyulan Bakı Beynəlxalq Caz Festivalı ənənəvi olaraq öz pərəstişkarlarına geniş proqram təqdim edir. Festival çərçivəsində konsertlərdən əlavə, incəsənət sərgiləri və caz mövzulu kino günləri də təşkil olunur.

Bu il festivalın proqramına istedadlı rəssam Ramina Səadətxanın əsərlərindən ibarət "Rəqs edən caz" layihəsi və caz əfsanəsi Maylz Devis haqqında filmin təqdimatı da daxildir.

davamı səh. 3-də

## Özbək sənətçilər Bakı səhnəsində

Azərbaycan və Özbəkistan arasında genişlənən mədəni əlaqələr çərçivəsində Əlişir Nəvai adına Özbəkistan Dövlət Akademik Opera və Balet Teatrının kollektivi Bakıya qastrola gəlib.

Vokal və balet truppaları, xor və simfonik orkestrdən ibarət 179 nəfərlik heyət paytaxtımıza teatrın repertuarından iki əsər – "Xumo" baleti və "Riqoletto" operasını gətirib.

Özbəkistanlı sənətçilər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində iki tamaşa ilə çıxış etdilər.

Qonaq kollektiv noyabrın 16-da Özbəkistanın Əməkdar incəsənət xadimi, bəstəkar və dirijor Ənvər Erqaşovun (1954-2021) "Xumo" baletini (dirijor Əzəmxan Əhmədov) təqdim etdi.

Qeyd edək ki, tamaşanın quruluşçu baletmeysteri Gürcüstanın Xalq artisti Georgi Aleksidze, baletmeysteri Özbəkistanın Əməkdar artisti Nazimə Həsənova, quruluşçu rəssamı Özbəkistanın Əməkdar mədəniyyət işçisi Zubaydullo Batırovdur.





Premyerası 2005-ci ildə baş tutan bu tamaşaya görə bəstəkar Ə.Erqaşov 2007-ci ildə Özbəkistanın I dərəcəli Dövlət mükafatına layiq görülüb.

Özbək milli baletinin dəyərli nümunələrindən olan tamaşada xeyirlə şərin mübarizəsindən bəhs olunur. Xeyir şər qüvvələr üzərində zəfər çalır. Sehrli quş – Xumo isə xeyirxahlıq və ədalət simvolu kimi bu mübarizəyə yardımçı olur.

Tamaşanı izləyənlər arasında Azərbaycan mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, ölkəmizdə səfərdə olan Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahadır Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də millət vəkilləri, bir sıra ölkələrin diplomatları, tanınmış mədəniyyət və incəsənət xadimləri vardı.

Xalq əfsanə və əsatirləri əsasında ərsəyə gələn balet nümunəsi zərifliyi, ifaçıların ustalığı və quruluşunda milli elementlərin çoxşaxəli sintezi ilə tamaşaçıların rəğbətini qazandı.

Özbəkistan Dövlət Akademik Opera və Balet Teatrı kollektivinin paytaxtımızda ikinci tamaşası da yaddaqalan olub. Özbək sənətçilər bakılı operasevərlərə görkəmli italyan bəstəkarı Cüzeppe Verdinin məşhur "Riqoletto" operasının (dirijor Denis Vlasenko) tamaşasını təqdim ediblər.

Əsas partiyaları Özbəkistanın məşhur opera ulduzları – Xalq artistləri Şükür Qafurov, Ramiz Usmanov ifa ediblər.

### Cavid ruhunun dolaşdığı məkan



səh. 6

### Mədəniyyət müəssisələrinin gənclərlə işləyən əməkdaşları üçün təlim keçirilib

səh. 3



### Qax Dövlət Kukla Teatrı 50 yaşını qeyd etdi

səh. 5

№85 (1958)
18 noyabr 2022
www.medeniyyet.az

# Azərbaycan Respublikası Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 aprel tarixli 1667 nömrəli Fərmanının icrası ilə əlaqədar qərara alıram:

1. "Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Kino Agentliyinin (bundan sonra – Agentlik) nizamnamə fondu 100000 (bir yüz min) manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

4.1. Agentlik dövlət qeydiyyatına alındıqdan sonra Agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 noyabr 2022-ci il**

# "Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilib

Prezident İlham Əliyev noyabrın 16-da "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə fərman imzalayıb.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.6.14-cü yarımbənd əlavə edilib:

"5.6.14. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir".

# ABİ-də Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbirlər planı müzakirə olunub

Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) İdarə Heyətinin noyabrın 17-də keçirilən iclasında ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər planı müzakirə edilib.

ABİ İdarə Heyətinin sədri, Xalq artisti, professor Firəngiz Əlizadə qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi çox əlamətdar bir hadisədir. Heydər Əliyev hələ sağlığında öz misilsiz xidmətləri ilə xalqımızın qəlbində əfsanəvi şəxsiyyət kimi hörmət qazanıb. Onun parlaq obrazı, əvəzolunmaz fəaliyyəti incəsənətin müxtəlif sahələrində, o cümlədən Azərbaycan bəstəkarlarının yaradıcılığında əksini tapıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Bəstəkarlar İttifaqında hər il böyük rəhbərə həsr olunmuş yeni əsərlər dinlənilir və müzakirə edilir.

İclasda Heydər Əliyevin 100 illiyinə həsr edilmiş tədbirlər planına uğun olaraq, konsertlərin və "Heydər Əliyev və Azərbaycan bəstəkarlıq məktəbi" adlı elmi konfransın keçirilməsi haqqında təkliflər səsləndirilib.

Firəngiz Əlizadə bəstəkarları ümummilli lider Heydər Əliyevin obrazını əks etdirən müxtəlif janrlı yeni əsərlərin yaradılması üçün səfərbər olmağa səsləyib. Xüsusilə bu mövzuda irihəcmli monumental əsərlərin yazılmasının vacibliyi qeyd olunub.

# İstiqlal Muzeyində "Anda sədaqət" sərgisi



Azərbaycan İstiqlal Muzeyində "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" layihəsi çərçivəsində sərgi-tədbirlər davam edir. Noyabrın 17-də muzeydə "Anda sədaqət" adlı sərgi keçirilib.

Sərgidə şəxsi əşyaları nümayiş olunan şəhidlərin ailə üzvləri çıxış edərək Vətən, torpaq uğrunda qanı-canı ilə tarix yazan cəsur oğullardan bəhs ediblər. Vurğulanıb ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər dövlətçilik tariximizin ən parlaq səhifəsidir. Otuz ilə yaxın düşmən işğalında olan torpaqların azad olunmasında canından keçən qəhrəmanlar heç vaxt unudulmayacaq.



Həmçinin qeyd olunub ki, xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 Noyabr – Milli Dirçəliş Günü ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra xüsusi anlam kəsb edir. Vətən müharibəsində qazanılan şanlı Zəfərdən sonra bütün işğaldan azad olunmuş ərazilər dirçəlir, tarixi torpaqlara həyat qayıdır.

Sonda tədbir iştirakçıları Vətən müharibəsi şəhidləri – mayor Elşad Həsənov, baş leytenant Hikmət Səfərov, əsgərlər Nicat Əhmədov, Nicat Tarıverdiyev, Sərxan Əliyevə məxsus 80-ə yaxın şəxsi əşyanın nümayiş olunduğu sərgi ilə tanış olublar.

Sərgi noyabrın 24-ə qədər davam edəcək.

# "Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq"

## "Amma Moskvadan oraya göndərilən Vardanyan kimi insanlarla yox..."

Siz Ermənistana səfərinizi və orada Ermənistan rəhbərliyindən sülh mesajı aldığınızı qeyd etdiniz. Biz işğalın davam etdiyi bütün illər ərzində bu mesajları eşitmişik. Lakin onlar səmimi deyildi. Biz də sülh arzulayırdıq, lakin torpaqlarımızı geri istəyirdik. Onlar isə torpaqları geri qaytarmadan sülh istəyirdilər. Fərq bunda idi. Beləliklə, biz münaqişəni güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə həll etməli olduq.



Prezident İlham Əliyev bu sözləri noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, müharibə başa çatdıqdan sonra Azərbaycan Ermənistana sülh sazişi üzərində danışıqlara başlamağı təklif edib: "Bu, dünya tarixində nadir hallardandır ki, ərazisi uzun illərdir işğal altında olan, ədaləti güc yolu ilə bərpa edən, düşməni məğlub edərək torpağından qovan ölkə sülh təklif etsin. Biz Ermənistan tərəfindən ərazilərimizin dağıdılması və viran qoyulması, azərbaycanlıların əzab-əziyyət çəkməsinə baxmayaraq, sülh təklif etdik. Biz məlum beş prinsipdən ibarət sülh və bir növ çərçivəni təklif etdik. Məhz biz delimitasiya komissiyasını yaratmağı təklif etdik. Bizim mövqe çox aydındır. Bu, dəfələrlə ictimaiyyət qarşısında, o cümlədən mənim Avropa Komissiyasının rəhbərliyi və normallaşma prosesində iştirak etmiş, hazırda iştirak edən ölkələrin, yəni, Birləşmiş Ştatların və Rusiyanın liderləri ilə kontaktlarım zamanı qeyd olunub. Bizim iki yolumuz olmalıdır: Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması prosesi və həmçinin hüquqlar və təhlükəsizlik baxımından Azərbaycanda, Qarabağda erməni azlığına aid məsələlər".

Prezident bildirib ki, bu iki istiqamət bir-birinə qarışmalı deyil və bir gün öncə (16 noyabr – red.) ABŞ dövlət katibi Entoni Blinkenlə telefon söhbətində də bu haqda bir daha danışıb: "Lakin Ermənistandan gələn bəyanatlar çox ziddiyyətlidir. Onlar bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Bu, bütün ərazimizin suverenliyi deməkdir. Hamımız suverenliyin nə olduğunu anlayırıq. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik. Buna görə bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır. Bir sözlə, bir daha deyirəm ki, biz onların əməllərini sözlərlə deyil, addımlarla ölçməliyik. Çünki onların dedikləri sözlər etdikləri əməllər və ya planları ilə ziddiyyət təşkil edir".

Azərbaycan Prezidenti vurğulayıb ki, əgər Ermənistan Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirsə, bu, alınmayacaq: "Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni, kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni, Azərbaycanın bu işdə yardımçı ola bilən hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır".

Qeyd edək ki, Avropa İttifaqının və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin iştirak etdiyi görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# "Cadenza"nın "Epitaf"ı

## Fərəc Qarayevin və yetirmələrinin əsərləri səsləndirildi

Noyabrın 16-da Beynəlxalq Muğam Mərkəzində "Cadenza" orkestrinin "Epitaf" adlı konsert proqramı keçirildi. Musiqi axşamında P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının professoru, tanınmış bəstəkar, Azərbaycanın Xalq artisti Fərəc Qarayev və tələbələri Elmir Mirzəyev, Aliyə Məmmədova, Əli Əlizadənin əsərləri ifa olundu.



Orkestr əsərləri peşəkarlıqla, həvəslə səsləndirdi. Solist Mirxalid Məmmədzadənin (fleyta) çıxışı isə ayrıca qeyd olunmağa dəyərdi.

Kollektivin bədii rəhbəri Türkər Qasımzadə, konsertmeysteri Samir Əsədov idi.

Konsertdən sonra təəssüratlarını bölüşən Xalq artisti Fərəc Qarayev gecədən yüksək əhvalla ayrıldığını dedi: "Orkestrə eşq olsun! Yüksək həssaslıq və həvəslə ifa etdilər. Bu, çox mühümdür. Yolları açıq olsun!".

Əməkdar incəsənət xadimi, musiqişünas Zümrüd Dadaşzadə sosial şəbəkə hesabında konsertdə səsləndirilən əsərlərlə bağlı fikirlərini qeyd edib: "Konsertdə şagird mövzusu proqramı müəyyənləşdirdi. Fərqli əsərlər idi, amma estetika səviyyəsində onların arasında bir bağlantı sezmək olardı. Musiqini yaşadığımız hisslər – iztirablar, sarsıntılar süzgəcindən keçirirdik. Əli Əlizadənin "Tənha çinarın ağısı"nda o qədər hüzn var idi ki. Çinar axı bir rəmzdir. Onun tənhalığı da, ağısı da hamımızın ürəyini ağrıdırdı. Küləyin vıyıltısı fonunda fleytanın səsini dinlədikcə tənhalığı fiziki olaraq duyurduq. Amma çinarımız sınmadı, nəğməsini səsləndirməkdə davam etdi. Aliyə Məmmədovanın kvarteti bəstəkarın gənc ikən yazdığı, ona uğur gətirən əsərlərdəndir. İkihissəli bu kvartet bəstəkarın formanı ustalıqla qurmaq, musiqi toxumasının hər bir detalını düşünübdaşınmaq kimi keyfiyyətini əyani nümayiş etdirdi. Elmir Mirzəyevin "Epitaf"ı sağalmayan yaramız – Xocalı soyqırımının 30 illiyi ərəfəsində yazılıb. Bu əsərdə o qədər ağrı, o qədər gərginlik, o qədər kədər var ki... Və sonda Fərəc Qarayevin "postludio" – son sözü... Bəstəkarın məhdud musiqi materialı çərçivəsində böyük sarsıntı yaratmaq bacarığı bir başqadır. O sükut, o pauzalar, o zərif kövrək lirika...".

**Lalə Azəri**

# XİN Fransaya nota verib

## Milli Məclis isə Azərbaycan Hökumətini müvafiq tədbirlər görməyə çağırıb

*əvvəli səh. 1-də*

Fransanın bu addımının regionda sülhün bərqərar olmasına, xüsusilə də, ölkəmizin israrlı olduğu Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında normallaşmasına ciddi zərbə vurmaq məqsədi daşıdığı, bölgədə sülhə qarşı olan revanşist qüvvələri həvəsləndirdiyi vurğulanıb.

Qətnamənin Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə"nin (1993) 2-ci maddəsinin 3-cü bəndi çərçivəsində öhdəliklərə tamamilə zidd olduğu qeyd edilib.

Fransa tərəfindən bir daha Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, onun daxili işlərinə müdaxilə olan addım və bəyanatlardan çəkinmək təkidlə tələb edilib.

Müvəqqəti işlər vəkili Azərbaycan tərəfinin müraciətini aidiyyəti üzrə çatdıracağını bildirib.

***

Noyabrın 16-da Milli Məclis Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat qəbul edib.





Milli Məclis Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edib:

1. Fransa Hökuməti tərəfindən bitərəflik təminatı verilməyənədək onun Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ilə bağlı təşəbbüs və fəaliyyətlərdə iştirakına imkan verilməməsi, bu məsələlər barəsində Fransa rəsmiləri ilə hər hansı müzakirənin aparılmaması.

2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivlərinin aşkar edildiyi təqdirdə onların dondurulması.

3. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməməsi.

4. Fransa şirkətlərinin Azərbaycan tərəfi ilə enerji sektorunda əməkdaşlığına yenidən baxılması.

5. Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi və iqtisadi münasibətlərə yenidən baxılması.

6. Qoşulmama Hərəkatının sədri kimi, Fransanın müstəmləkəçilik siyasəti, insanlıq əleyhinə cinayətləri və hərbi cinayətləri ilə bağlı məsələlərin beynəlxalq təşkilat çərçivəsində qaldırılması.

7. Fransanın islamofobiya siyasəti məsələsinin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.

8. Fransanın türkofobiya siyasəti məsələsinin Türk Dövlətləri Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.

***

Fransa Senatının Azərbaycanla bağlı qəbul etdiyi qətnamə Fransa Hökumətinin mövqeyi deyil.

Bu barədə Fransa Xarici İşlər Nazirliyinin nümayəndəsi, Cənubi Qafqaz üzrə xüsusi elçi, Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə səfiri Brice Rocquefeuil noyabrın 17-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla görüşdə bildirib.

# Bakı Caz Festivalı davam edir





əvvəli səh. 1-də

Qeyd olunub ki, XVII Bakı Beynəlxalq Caz Festivalının açılış mərasiminin ADA Universitetində keçirilməsi təsadüfi deyil. ADA Universiteti gənclərin, tələbələrin inkişafı üçün bir çox layihələr həyata keçirir.

Sonra festivalın yaradıcılarından biri olan tanınmış cazmen, saksofon ifaçısı, Əməkdar artist Rain Sultanov tamaşaçıları salamlayıb.

Açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev ənənəvi caz festivalının açılışına ev sahibliyi etməkdən şərəf duyduqlarını bildirib. O, illər öncə caz musiqisi ilə tanışlığına dair xatirəsini tədbir iştirakçıları ilə bölüşüb. ADA Universitetinin rektoru tədbirə gələn hər kəsə təşəkkürünü bildirib.

Mədəniyyət naziri Anar Kərimov Bakı Beynəlxalq Caz Festivalının gözəl bir ənənəyə çevrilməsindən söz açıb. O, builki festivalın açılış mərasiminin ADA Universitetində təşkilinə görə rektor Hafiz Paşayevə minnətdarlığını bildirib. Nazir qeyd edib ki, builki festivalda gənclərə xüsusi yer ayrılıb. Festival çərçivəsində onlar arasında müsabiqə də keçiriləcək. Bakı Beynəlxalq Caz Festivalının coğrafiyası ildən-ilə böyüyür. Bu il Almaniya, İsveçrə, İtaliya, İsrail, Braziliya və digər ölkələrdən ifaçılar çıxış edəcəklər. Əminik ki, festival Azərbaycanda olan caz ənənələrini daha da inkişaf etdirəcək.

Festivalın açılışında Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz da çıxış edərək bu mərasimdə olmaqdan məmnunluğunu söyləyib və tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Daha sonra "Grammy" mükafatı laureatı, isveçrəli ifaçı Qreqori Maret konsert proqramını təqdim edib. Konsertdə məşhur cazmenlə bərabər gənc azərbaycanlı pianoçu Elbəy Məmmədzadə də çıxış edib.

Qeyd edək ki, noyabrın 16-da festival çərçivəsində "Hypnoze Club"da braziliyalı musiqiçi Eloiza Lourenso çıxış edib.

Noyabrın 17-də "QGallery"də rəssam Ramina Səadətxanın "Rəqs edən caz" sərgisi açılıb. Sərgidə tamaşaçılar caz sədaları altında yaradılmış rəsmlərə baxıblar.

Həmin gün "YARAT" Müasir İncəsənət Mərkəzində kinoşünas Ülvi Mehdinin aparıcılığı ilə caz əfsanəsi Maylz Devis haqqında filmin təqdimatı olub.

Festivalın 18-20 noyabr konsertləri Beynəlxalq Muğam Mərkəzində keçirilir...

## "I am jazzman!" müsabiqəsinin dinləmələri

Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən "Bakı Caz Festivalı – 2022" çərçivəsində "I am jazzman!" ("Mən cazmenəm!") adlı gənc caz ifaçıları müsabiqəsi də təşkil olunub.

Müsabiqənin məqsədi ölkədə caz sənətinin təbliği və gənc istedadların üzə çıxarılmasıdır. "I am jazzman!" bu sahədə ilk addımlarını atan musiqiçilər üçün gözəl fürsətdir.

Noyabrın 17-də Beynəlxalq Muğam Mərkəzində müsabiqə iştirakçılarının ikinci tur dinləmələri keçirildi. Gənclərin əksəriyyəti ilk dəfə idi ki, müsabiqəyə qatılmışdı. Onlar dünyanın məşhur caz ifaçılarının repertuarından müxtəlif kompozisiyalar ifa etdilər.



Müsabiqənin növbəti turu və qala-konserti noyabrın 19-da keçiriləcək.

**Lalə**

# Bakı Bələdiyyə Teatrının 30 illik yubileyi qeyd olunub

Bu il Bakı Bələdiyyə Teatrının fəaliyyətə başlamasının 30 illiyidir. Noyabrın 15-də teatrın yubiley gecəsi keçirilib.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq yazıçısı Elçin, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili, akademik Rafael Hüseynov, Azərbaycanın Vatikan Dövlətindəki səfiri İlqar Muxtarov, Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova, Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov, Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov, tanınmış mədəniyyət, incəsənət xadimləri, sənətsevərlər iştirak ediblər.

Öncə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalova çıxış edərək mədəniyyət naziri Anar Kərimovun Bakı Bələdiyyə Teatrının kollektivinə yubiley münasibətilə təbriklərini çatdırıb. O, həmçinin nazirliyin müvafiq əmri ilə teatrın bir qrup əməkdaşının fəxri fərmanla təltif olunduqlarını bildirib və təltifləri sahiblərinə təqdim edib.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri müavini, Xalq artisti Hacı İsmayılov ittifaqın sədri, Xalq artisti Azər Paşa Nemətovun xoş diləklərini kollektivə çatdırdıqdan sonra ATXİ-nin teatrın bir qrup sənətçisinə "Sənətkar" medalı, fəxri fərman və "Qızılgül" mükafatları təqdim olunub.




Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) sədri, Xalq artisti Rasim Balayevin yubiley təbrik məktubunu ittifaqın katibi, Xalq artisti Həmidə Ömərova oxuyub.

Gecədə digər çıxış edənlər də teatrın yubileyi ilə bağlı kollektivə təbriklərini çatdırıb, yaradıcılıq uğurları arzulayıblar.

Çıxışlardan sonra Bakı Bələdiyyə Teatrının 30 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Daha sonra yubilyar teatrın Xalq yazıçısı İlyas Əfəndiyevin "Qarabağnamə" və Xalq yazıçısı Elçinin "Baş" romanı əsasında hazırladığı "Şuşada ürəyim qaldı" tamaşasının premyerası olub.

Tamaşanı səhnələşdirəni və quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, bəstəkarı Eldar Mansurovdur. Əsas rolları İsmayıl Atakişiyev, Rəşad Kəsəmənli, Rafiq İbrahimov, Əməkdar artistlər Hüsniyyə Mürvətova, Əfqan Soltanov, həmçinin Zülfiyyə Qurbanova, Asif Rəhimov və başqaları oynayıblar.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın 270 illiyinə, eyni zamanda Bakı Bələdiyyə Teatrının 30 illik yubileyinə həsr olunan "Şuşada ürəyim qaldı" tamaşasında tarixən Azərbaycan xalqının başına gətirilən müsibətlər və ölkəmizin bu bəlaların içindən mərd-mərdanə çıxaraq öz dövlətini qorumağa çalışması diqqət mərkəzinə çəkilir. Çar Rusiyasının general Sisianovun Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda törətdiyi faciələrdən danışan və İbrahim xanın qızı Ağabəyim ağanın başına gətirilən müsibətlərdən bəhs edən səhnə əsərində Azərbaycan xanlıqlarının ayrı-ayrı dövlətlərdən ibarət olsa da, əslində, müstəqilliyimizin əsasını qoymağa çalışmaları göz önünə gətirilir.

Qeyd edək ki, Bakı Bələdiyyə Teatrı 1992-ci ildə görkəmli teatr və kino xadimləri, Xalq artistləri Amaliya Pənahova və Yusif Muxtarov tərəfindən yaradılıb. Mədəniyyətimizin böyük hamisi, ulu öndər Heydər Əliyev teatrın fəaliyyətinə xeyir-dua verib, diqqət və qayğı göstərib. Bu illər ərzində yerli və xarici müəlliflərin çoxsaylı əsərlərinə səhnə həyatı verən kollektiv müasir Azərbaycan teatrının inkişafında öz imzasını qoyub.

# Mədəniyyət müəssisələrinin gənclərlə işləyən mütəxəssisləri üçün təlim



"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramının müvafiq bəndinin və "Yeniyetmələr və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin genişləndirilməsinə dair 2022–2023-cü illəri əhatə edən Tədbirlər Planı"nın icrası ilə bağlı Milli Azərbaycan Tarixi Muzeyində təlim təşkil edildi.

Təlim Mədəniyyət Nazirliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası İşçi qrupunun birgə təşkilatçılığı ilə noyabrın 16-da gerçəkləşdi.

Təlimdə Mədəniyyət Nazirliyinin tabeliyindəki mədəniyyət müəssisələrinin gənclərlə işləyən mütəxəssisləri iştirak edirdilər.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası Milli informasiya sektorunun müdiri Raqif Allahverdiyev qeyd etdi ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Bu problem insan cəmiyyətinin mənəvi-əxlaqi dəyərlərinə böyük zərbə vurur, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır, cinayətkarlığın artmasına səbəb olur. Dünyada narkotiklərə qarşı mübarizə iki istiqamətdə aparılır. Birinci istiqamət hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılmasıdır. İkinci istiqamət isə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı maarifləndirmə yolu ilə mübarizənin aparılmasıdır.

Sektor müdiri bildirdi ki, Dövlət Komissiyasının 802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların aidiyyəti təşkilatlarla operativ əlaqəsi təmin edilib.

R.Allahverdiyev narkotik vasitələrin zərərləri və ondan qorunmağın yolları ilə bağlı zəruri məlumatları diqqətə çatdırdı, iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparıldı.

Sonda təlim iştirakçılarına Dövlət Komissiyasının sertifikatları təqdim olundu.

**Nurəddin**

## Mədəniyyət Nazirliyində Özbəkistan nümayəndə heyəti ilə görüş

Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev noyabrın 16-da ölkəmizdə səfərdə olan Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahadır Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonağı səmimi salamlayan Vaqif Əliyev ölkələrimiz və xalqlarımız arasındakı tarixi dostluq və qardaşlıq əlaqələrinin bu gün yüksək səviyyəyə çatmasından məmnunluğunu bildirib. Qeyd edib ki, bu əməkdaşlıq xüsusilə mədəniyyətin müxtəlif sahələrində həyata keçirilən layihələrdə öz təsdiqini tapır. Azərbaycanın türk respublikaları ilə mədəni əlaqələrində Özbəkistanla olan münasibətlər xüsusi yer tutur.

Vaqif Əliyev deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabr ayının əvvəlində Özbəkistana səfəri, keçirilən görüşlər və qatıldığı tədbirlər iki ölkə arasında əlaqələrin yüksək inkişafının bariz göstəricisidir.

Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahadır Əhmədov qəbula görə təşəkkür edib. Bildirib ki, Özbəkistan nümayəndə heyətinin Azərbaycana gəlişi Əlişir Nəvai adına Özbəkistan Dövlət Akademik Opera və Balet Teatrının 14-18 noyabr tarixində Bakıya qastrol səfəri ilə bağlıdır. Səfər çərçivəsində kollektiv özbək bəstəkarı Ənvər Erqaşovun "Xumo" baletini və italyan bəstəkarı Cüzeppe Verdinin "Riqoletto" operasını nümayiş etdirəcək.

Göstərilən qonaqpərvərliyə və yüksək səviyyəli təşkilatçılığa görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirən Bahadır Əhmədov bu kimi mədəni layihələrin davamlı olmasına inamını ifadə edib.

Görüşdə Azərbaycan və Özbəkistan arasında qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

## "Sözün repressiyası" təqdim edilib

Mədəniyyət Nazirliyinin dəstəyi ilə çəkilən "Sözün repressiyası" sənədli filmi noyabrın 16-da Nizami Kino Mərkəzində təqdim olunub.

"Bulatfilm Production" şirkətinin istehsalı olan filmin rejissoru Rafiq Həşimov, ssenari müəllifi Səlim Babullaoğlu, operatoru Rüfət Süleymanovdur.

Filmin nümayişindən əvvəl jurnalistlərə müsahibə verən Səlim Babullaoğlu bildirib ki, bu il ölkə başçısının müvafiq sərəncamları ilə böyük şairlər, 30-cu illərin repressiya qurbanları Əhməd Cavad və Hüseyn Cavidin yubileyləri qeyd olunur. Filmin təqdimatı bu yubileylərlə üst-üstə düşür: "Filmdə repressiya qurbanı olmuş 31 yazıçı, şair, digər ədəbiyyat xadimləri xatırlanır, bəzilərinin faciəvi tarixçəsi danışılır. Eyni zamanda filmdə Stalin repressiyalarının retrospektiv planda faciəvi və tarixi fəlsəfəsi araşdırılır. Qarşımızda bir məqsəd dururdu ki, tamaşaçı filmə baxarkən o dövr haqqında aydın təsəvvür əldə etsin. Biz həmin görkəmli aydınlarımızı, əslində bizi müstəqilliyə doğru aparan şəhidlərimizi dərin ehtiramla anırıq".




Filmin rejissoru Rafiq Həşimov Mədəniyyət Nazirliyinə, filmin yaradıcı heyətinə və təqdimata gələn hər kəsə təşəkkürünü bildirib.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin sektor müdiri Rüfət Əliyev filmdə repressiya illərində xalqımızın başına gətirilən müsibətlərin əks olunduğunu bildirib və tarixi həqiqətlərin geniş kütləyə çatdırılması baxımından belə ekran əsərlərinin böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Sonra film nümayiş olunub.

Filmdə Xalq yazıçısı Anar, tarixçi Həmid Cəfərov, akademik Rafael Hüseynov, Repressiya Qurbanları Muzeyinin direktoru Mirabbas Məmmədov, filoloq alimlər Firudin Qurbansoy və Bədirxan Əhmədovun Stalin repressiyalarının və kommunist siyasətinin mahiyyəti ilə bağlı fikirləri yer alıb.

## Şahin Növrəsli ilə "Ustad dərsləri"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və "Cultural Network House" ("Mədəniyyət Şəbəkələr Evi") İctimai Birliyinin birgə təşkilatçılığı ilə tanınmış pianoçu, cazmen Şahin Növrəslinin "Ustad dərsləri" layihəsi başlanıb.



Layihə 3 mərhələdən ibarətdir. İlkin mərhələdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan uşaq musiqi və incəsənət məktəblərində təhsil alan şagirdlər arasında seçim turu keçirilib. Sonra Vaqif Mustafazadə adına 2 nömrəli İncəsənət məktəbində "Ustad dərsləri" başlanıb. Həmçinin ustad dərslərində iştirak edən şagirdlərin Şahin Növrəslinin rəhbərliyi ilə konsert proqramı nəzərdə tutulur.

Layihənin məqsədi Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki uşaq musiqi və incəsənət məktəblərində təhsil alan şagirdlər arasından klassik repertuar proqramlarından əlavə, caz musiqisini də təbliğ etmək, onların bədii estetik zövqünü yüksəltmək, istedadlı şagirdlərin üzə çıxarmaq və ifaçılıq qabiliyyətlərini inkişaf etdirməkdir.

Layihə dekabrın 3-dək (həftədə bir dəfə olmaqla) davam edəcək.

# Böyük Qayıdış Proqramında mədəniyyət və mədəni irslə bağlı tədbirlər də nəzərdə tutulub

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilib.

Dövlət Proqramında müvafiq fəaliyyət istiqamətlərinə dair Tədbirlər Planı (2022–2026-cı illər) da əks olunub.

Tədbirlər Planı altı prioritet istiqaməti əhatə edir: 1. Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili; 2. Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini; 3. Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması; 4. Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması; 5. Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası; 6. Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi.

Hər prioritet üzrə müvafiq fəaliyyət istiqamətləri nəzərdə tutulub.

2-ci prioritet istiqamət üzrə fəaliyyət istiqamətlərindən biri (2.7.) "Yaşayış məntəqələrində mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası"dır.

Bu fəaliyyət istiqamətinin əsas icraçı qurumu Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir. Digər icraçılar qismində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN), Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (DŞAK), Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi (MAİ), Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (DTA), Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK), Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" (BTİX), Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Yerli icra hakimiyyəti orqanları (YİH), Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi (ARPXN) qeyd olunub.

Bundan əlavə, 5-ci prioritet istiqamət – "Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası" üzrə müvafiq fəaliyyətə dair tədbirlərin (Turizm məhsullarının yaradılması və inkişaf etdirilməsi) icraçıları sırasında da Mədəniyyət Nazirliyi digər icraçılar qismində yer alıb.

Həmin istiqamətdə qeyd olunur ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın təmin edilməsi üçün əsas hədəf göstəricisi postmünaqişə dövründə ərazilərin iqtisadi cəhətdən özü-özünü təmin edən regiona çevrilməsidir.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq, Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa rayonu mədəniyyət və turizm sənayesi, Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəzlər kimi qiymətləndirilə bilər. Eyni zamanda turizm potensialından yararlanmaqla regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün bölgədə bu sənayenin inkişafı istiqamətində tədbirlər həyata keçiriləcək.

**Fəaliyyət istiqaməti 2.7. Yaşayış məntəqələrində mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası**

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | Əsas icraçı qurum | Digər icraçılar | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | | | | | icra müddəti ərzində hər il | 2022–2025 | 2026 |
| 2.7.1. | Mədəniyyət tədbirləri və layihələrinin, o cümlədən festivalların, poeziya günlərinin keçirilməsi | 2022–2026 | Mədəniyyət Nazirliyi | XİN | Müvafiq sahədə təkliflərin hazırlanması | Müvafiq sahədə 4 tədbirin həyata keçirilməsi | Ərazilərdə mədəniyyət ənənəsinin bərpası |
| 1. | Vaqif Poeziya Günləri ənənəsinin bərpa edilməsi | 2022–2026 | Mədəniyyət Nazirliyi | | Hər il Şuşa şəhərində "Vaqif Poeziya Günləri" keçirilir | | |
| 2. | Xarıbülbül festivalı ənənəsinin bərpa edilməsi | 2022–2026 | Mədəniyyət Nazirliyi | | Hər il Şuşa şəhərində Xarıbülbül Folklor Festivalı keçirilir | | |
| 2.7.2. | Tamamilə və ya qismən dağıdılmış muzeylərin tikintisi və bərpası | 2022–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, MAİ | Hər rayon üzrə dağıdılmış muzeylərin monitorinqinin aparılması, muzey fondlarının inventarizasiyası, muzeylər barədə arxiv materiallarının araşdırılması | Hazırlanmış müvafiq konsepsiyalar əsasında muzeylərin tikintisi, bərpası və təmiri | Muzeylərin fəaliyyətinin bərpası |
| 2.7.3. | İşğal və Zəfər muzeyləri komplekslərinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | 2022–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, ARPXN | İşğal və Zəfər muzeyləri kompleksləri üçün konsepsiyaların hazırlanması və layihələndirmə işlərinin həyata keçirilməsi | İşğal və Zəfər muzeyləri komplekslərinin tikintisi | İşğal və Zəfər muzeyləri komplekslərinin fəaliyyət göstərməsi |
| 2.7.4. | Tarix və mədəniyyət abidələrində, eləcə də daşınmaz tarix-mədəniyyət abidələrində bərpa, konservasiya, rekonstruksiya və regenerasiya işlərinin aparılması | 2022–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, AMEA | Abidələrin ilkin inventarlaşdırılması, cari vəziyyətinin təhlili, foto, video və 3D formatında qeydə alınması və məlumat bazasının yaradılması | Abidələrin tikinti, təmir və bərpa işlərinin layihələndirilməsi və həyata keçirilməsi | Abidələrin bərpa edilməsi və elektron məlumat bazasının yaradılması |
| 1. | Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin ucaldılması | icra edilib | Mədəniyyət Nazirliyi | QMKİDK | 2022-ci il oktyabrın 4-də Ağdam şəhərində Xan qızı Natəvanın qəbirüstü abidəsinin açılışı olmuşdur | | |
| 2.7.5. | Mədəni xidmətlərin təşkili üçün bədii kollektivlərin yaradılması | 2022–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, BTİX, YİH, ARPXN | Müvafiq sahədə təkliflər hazırlanması | Bədii kollektivlərlə bağlı tələbatın müəyyən edilməsi və kollektivlərin yaradılmasına başlanılması | 6 bədii kollektivin yaradılması (yeni və ya bərpa olunmaqla) |
| 2.7.6. | Mədəniyyət müəssisələri və obyektlərinin yaradılması ilə bağlı tədbirlər görülməsi | 2023–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, BTİX, YİH, ARPXN | İnfrastrukturun yaradılacağı ərazinin müəyyən edilməsi və tikinti işlərinin layihələndirilməsi | Planlaşdırılan ərazilərdə infrastrukturun tikintisi | Geri qayıdış mərhələlərinə uyğun olaraq planlaşdırılan ərazilərdə mədəniyyət infrastrukturunun fəaliyyət göstərməsi |
| 1. | Ağdam və Füzuli rayonlarında Heydər Əliyev Mərkəzi, "Art Mall" Kompleksi və mədəniyyət müəssisələrinin yaradılması | 2023–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, BTİX, YİH, ARPXN | Müvafiq sahədə layihələndirmə işlərinin aparılması | Hazırlanmış layihəyə uyğun tikintinin həyata keçirilməsi | Müvafiq mədəniyyət müəssisələri və obyektlərinin fəaliyyət göstərməsi |
| 2. | Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın rayonlarında və Xocavənd rayonunun Hadrut qəsəbəsində Heydər Əliyev Mərkəzi və mədəniyyət müəssisələrinin yaradılması | 2023–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, BTİX, YİH, ARPXN | Müvafiq sahədə layihələndirmə işlərinin aparılması | Hazırlanmış layihəyə uyğun tikintinin həyata keçirilməsi | Müvafiq mədəniyyət müəssisələri və obyektlərinin fəaliyyət göstərməsi |
| 3. | Kəlbəcər rayonunda və Tərtər rayonunun Suqovuşan qəsəbəsində Heydər Əliyev Mərkəzi və mədəniyyət müəssisələrinin yaradılması | 2024–2026 | Mədəniyyət Nazirliyi | DŞAK, DTA, BTİX, YİH, ARPXN | Müvafiq sahədə layihələndirmə işlərinin aparılması | Layihəyə uyğun tikintinin həyata keçirilməsi | Müvafiq mədəniyyət müəssisələri və obyektlərinin fəaliyyət göstərməsi |

## Vətənin qəhrəmanları unudulmur

Gəncə RMİ Samux rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidləri Həsən Məmmədli, Taleh Yusifov və Qəzənfər Abdullayevin şəhadətlərinin ikinci ildönümü ilə əlaqədar tədbir təşkil olunub.

***



Mədəniyyət Nazirliyinin tabeliyindəki Respublika Xatirə Kitabı Redaksiyası tərəfindən çap edilən "44 gün – tarixi Zəfər" üçcildliyin I cildinin ("A-Ə" hərfləri üzrə) növbəti təqdimatı Xaçmaz RMİ Xaçmaz şəhər Heydər Əliyev adına Mədəniyyət Mərkəzində gerçəkləşib. Çıxış edənlər şanlı Zəfərimizdən danışıb, nəşrin əhəmiyyətini qeyd ediblər.

***



Sumqayıt RMİ Qubadlı rayon nümayəndəliyi tərəfindən II Fəxri xiyabanda Vətən müharibəsinin şəhid mayoru Elçin Alıyevin anım mərasimi keçirilib. Tədbirdə Qubadlının icra başçısı Malik İsaqov, mədəniyyət işçiləri, şəhidin ailə üzvləri və digər qonaqlar iştirak ediblər.

***



Masallı RMİ-nin Cəlilabad üzrə nümayəndəsi Elnur Atakişiyev, rayon Mədəniyyət Mərkəzinin direktoru Ramil İbrahimov və mədəniyyət müəssisələrinin əməkdaşları Vətən müharibəsi şəhidi Əlikram Xanışovun ailəsini ziyarət ediblər.

***

Lənkəran şəhər Haftoni qəsəbə şəhidlərinin – Milli Qəhrəman Əsgər Əliyev, I Qarabağ müharibəsi şəhidləri Soltan Əliyev, Füzuli Nəsirli və Natiq Aslanovun xatirəsinə inşa olunan bulaq kompleksinin açılış mərasimi olub.

Lerik rayonunun Vov kəndində Vətən müharibəsi şəhidi Samir Hüseynovun xatirəsinə bulaq kompleksi tikilib.

**Hazırladı: N.Məmmədli**

## Milli oyanış və milli birlik günü



17 noyabr ölkəmizdə Milli Dirçəliş Günüdür. 1988-ci il noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına etiraz olaraq Bakıda mitinqlər başlayıb. Fasiləsiz mitinqlər eyni zamanda ölkədə müstəqilliyə aparan xalq hərəkatına təkan verib. 1992-ci ildə 17 noyabr tarixi Milli Dirçəliş Günü elan edilib. Əlamətdar gün münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilib.

Biləsuvar RMİ Cəbrayıl rayon Mədəniyyət evinin Qalacıq, Şıxlar və Hovuslu kənd klubları "Azadlığa gedən yol" başlığı altında tədbir təşkil ediblər.

***

Masallı RMİ Cəlilabad rayon Şabanlı kənd Mədəniyyət evində Milli Dirçəliş Gününə həsr olunmuş tədbir keçirilib. Mədəniyyət evinin direktoru Cəmil Əzizov çıxış edərək əlamətdar günün tarixi haqqında məlumat verib.

***

Şəki RMİ Zaqatala rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki Car kənd Mədəniyyət evində "Dirçəlişin mübarək, Azərbaycan!" başlığı altında tədbir keçirilib. Tədbir torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Çıxış edənlər ölkəmizin müstəqilliyinə gedən yoldan danışıblar.

***

Ağstafa RMİ Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsində "Birliyimizin sübut günü" adlı tədbir keçirilib. Baş kitabxanaçı Rahidə Kazımova şagirdlərə Milli Dirçəliş Günü və Azərbaycanın müstəqillik tarixi haqqında ətraflı məlumat verib.

Tovuz rayon Qovlar şəhər Uşaq musiqi məktəbində "Azadlıq üçün ayağa qalxan xalq" adlı tədbir təşkil olunub. Çıxışlarda qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandığı zaman xalqımız ayağa qalxaraq erməni separatizminin önünü kəsmək üçün meydanlara axışıb.

***

Ağcabədi Regional Mədəniyyət İdarəsi (RMİ) Ağcabədi rayon Heydər Əliyev Mərkəzində Milli Dirçəliş Günü münasibətilə tədbir təşkil olunub. Rayon İcra Hakimiyyətinin əməkdaşı Vüsalə Məmmədova, mərkəzin direktor səlahiyyətlərini icra edən Rövşanə Əliyeva və digərləri çıxış edib, əlamətdar günün tarixi və əhəmiyyəti barədə söz açıblar.

***



Gəncə RMİ Gəncə şəhər Mədəniyyət Mərkəzində Milli Dirçəliş Günü ilə əlaqədar keçirilən tədbirdə bildirilib ki, bu gün ulu öndər Heydər Əliyevin dövlətçilik yolu ilə inamla irəliləyən Azərbaycan Prezident İlham Əliyevin liderliyində yeni uğurlara doğru gedir.

Samux rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Dirçəliş Günün mübarək, Azərbaycan!" başlığı altında tədbir təşkil edib. Mövzu ilə bağlı videoçarxlar nümayiş olunub, şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

***

Sabirabad RMİ Şirvan Dövlət Rəsm Qalereyası və Gənclərin İnkişaf və Karyera Mərkəzi Şirvan nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli oyanış və milli birlik günü" adlı sərgi keçirilib. Sərgidə Şirvan şəhərində yaşayan həvəskar gənclərin əl işləri nümayiş olunub.

## Lənkəranlı rəssamın fərdi sərgisi

Lənkəran Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Lənkəran şəhər Mədəniyyət Mərkəzində qocaman rəssam Nəcəf Məmmədovun fərdi yaradıcılıq sərgisi açılıb.

RMİ-nin rəisi Şahin Şahbazov rəssamın həyat və yaradıcılığı haqqında məlumat verib. Sərgidə nümayiş etdirilən əsərlərin tarix və mədəniyyətimizi, eyni zamanda Lerikin təbiətini təcəssüm etdirdiyi qeyd olunub.

Nəcəf Məmmədov çıxış edərək incəsənət ustalarına göstərilən diqqətə və qayğıya görə təşəkkürünü bildirib.

İdarənin rəisi rəssama fəxri fərman təqdim edib, yaradıcılıq uğurları arzulayıb. Sonra sərgiyə baxış olub. 50-dən çox əsərin yer aldığı sərgi maraqla qarşılanıb.



72 yaşını qeyd edən Nəcəf Məmmədov bir sıra beynəlxalq sərgilərdə iştirak edərək uğurlar qazanıb.

## Şəkidə dahi bəstəkarın yubiley tədbiri

Şəki RMİ Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbində dahi bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə tədbir keçirilib.

Məktəbin müəllimi Solmaz Azaqova bəstəkarın həyat və yaradıcılığı barədə danışıb.

Bədii hissədə məktəbin müəllim və şagirdlərinin ifasında bəstəkarın əsərləri səsləndirilib.

Sonda məktəbin direktoru vəzifəsini müvəqqəti icra edən Sevil Rəsulova Fikrət Əmirovun yaradıcılığı ilə bağlı fikirlərini bildirib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinin qeyd olunması ilə bağlı 2022-ci il martın 15-də sərəncam imzalayıb. Vurğulanıb ki, görkəmli bəstəkarın zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

# XIII Bakı Beynəlxalq Qısa Filmlər Festivalının qalibləri məlum oldu




Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 11-15 noyabr tarixində Nizami Kino Mərkəzində keçirilən XIII Bakı Beynəlxalq Qısa Filmlər Festivalına (BBQFF) yekun vurulub.

Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi festivala Nizami Kino Mərkəzi, Dövlət Film Fondu, Azərbaycan Prodüserlər Gildiyası, “Öz Film” şirkəti, “British Council”, Bakı Kitab Mərkəzi, eləcə də ölkəmizdən və Türkiyədən bir sıra özəl qurumlar dəstək verib.

Noyabrın 15-də Nizami Kino Mərkəzində festivalın bağlanışı və qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Mərasimdə Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov, İsveç Krallığının Bakıdakı səfiri Tobias Lorentzso, bir sıra ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri, festivalın münsiflər heyətinin üzvləri və digər qonaqlar iştirak edirdilər.

Festival haqqında məlumat verildikdən sonra qaliblər elan olundu. Festivalın “Qızıl nar” mükafatı, həmçinin xüsusi mükafatlar və diplomları sahiblərinə təqdim edildi.

Bildirildi ki, müsabiqənin beynəlxalq kateqoriyası üzrə rejissor Sauilius Baradinskasın (Litva) “Texno ana” filmi “ən yaxşı bədii film” nominasiyasında qalibidir. “Ən yaxşı sənədli film” nominasiyası üzrə Lois Patinonun (İspaniya) “Ulduz səpən”, “ən yaxşı animasiya filmi” nominasiyasında Van Li Lyunun (Tayvan – ÇXR) “Vağ çayı” filmləri qalib adını qazandı.

“Ən yaxşı bədii film rejissoru” nominasiyasında “Rütubət” filmi ilə Turan Xəstə (Türkiyə), “ən yaxşı sənədli film rejissoru” üzrə “Yeva və Ramona” filmi ilə Minka Jakerson (İsveç), “ən yaxşı animasiya film rejissoru” nominasiyasında isə “Həşəratların oyanışı” ekran işi ilə Stefani Lensak, Fransua Leroy (Fransa) birinci oldular. Rejissor Mariya Apçevskanın (Makedoniya) “Şimal qütbü” filmi münsiflər heyətinin xüsusi mükafatına layiq görüldü.

“Asiya istedadları” müsabiqəsi üzrə Ramin Fərzani və Parisa Sədaiazərin (İran) “Kainatın gecəsi” filmi “ən yaxşı film” nominasiyasında qalib oldu. “Gecəyarısı” filmi ilə Nazilə Əzizi (Əfqanıstan) “Ən yaxşı bədii film rejissoru” elan edildi. Rejissorlar Rəna Vaezi və Ozra Xan Xajehin (İran) “Boşqab” filmi Gənc Kinematoqrafçılar Mərkəzinin mükafatını qazandı.

Yerli müsabiqənin “ən yaxşı bədii film” nominasiyasında rejissor Qulu Əsgərovun “Hasar”, “ən yaxşı sənədli film” üzrə Toğrul Abbasovun “Toz çəkiləndən bəri”, “ən yaxşı sosial çarx” nominasiyasında Böyükağa Əliyevin “Onun kamerası”, “ən yaxşı tələbə filmi”ndə Kamal Müşfiqin “Motivator” filmləri qalib oldular.

Rüstəm Babazadə “Son payız” filmi ilə “ən yaxşı rejissor”, Türkan Hüseyn isə “Sonuncu foto” filmi ilə “ən yaxşı ssenari” nominasiyasında qalib adını qazandılar.

Rejissorlar Səddam Mehdiyev və Murad Hüseynov “İki yol” və “Vəhşi durnalar mövsümü” filmlərinə görə münsiflər heyətinin xüsusi mükafatını aldılar.

Rejissor Aynur Kazımovanın “Unudulmuş arzular” filmi Gənc Kinematoqrafçılar Mərkəzinin mükafatını qazandı. Elnur Paşa (“Yalnız məzar” – bədii film), Cavad Nur (“Uzaq” – sosial çarx), Amil Amal (“Vulkan üzərində ev” – sənədli film) və Ruslan Mollayev (“Sınaq” – bədii film) isə münsiflər heyətinin diplomuna layiq görüldülər.

Mükafatlandırma mərasimindən sonra Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov və BBQFF-nin direktoru, Gənc Kinematoqrafçılar Mərkəzinin sədri Fehruz Şamıyev çıxış edərək qalibləri təbrik etdi, onlara yeni uğurlar arzuladılar.

Sonda Q.Əsgərovun “Qızıl nar”a layiq görülmüş “Hasar” filmi nümayiş etdirildi.

**Nurəddin**

# Mədəniyyət Nazirliyi Apellyasiya Şurasının növbəti iclası keçirilib

Mədəniyyət Nazirliyi Apellyasiya Şurasının noyabrın 15-də keçirilən növbəti iclasında nazirlikdə vakant olan dövlət qulluğu vəzifələrinin tutulması ilə bağlı Dövlət İmtahan Mərkəzinin 21 aprel 2022-ci il tarixində elan etdiyi müsabiqə üzrə keçirilmiş müsahibələrin nəticələrinə dair Tural Bəhrəm oğlu Cəfərli, Rəhman Habil oğlu Qurbanov və Babək İlqar oğlu Cəfərovun apellyasiya şikayətlərinə baxılıb.

İclas zamanı Babək Cəfərovun müsahibə ilə bağlı fikirləri dinlənilib, Dövlət İmtahan Mərkəzinin 11 oktyabr 2022-ci il tarixli PMŞ/3-2-2022-2908 nömrəli və 1 noyabr 2022-ci il tarixli PMŞ/3-2-2022-3122 nömrəli məktubları ilə təqdim edilmiş müsahibələrin videoçəkilişinə və sənədlərinə əsasən, Şura üzvlərinin hazırladığı rəylər müzakirə olunub.

Tural Cəfərli və Rəhman Qurbanov Şuranın iclasında iştirak etmədiyindən onunla keçirilmiş müsahibənin nəticəsinə dair rəylər Şura üzvləri tərəfindən onun iştirakı olmadan müzakirə edilib. Sonda müvafiq qərarlar qəbul edilib.

Hər üç şikayətlə əlaqədar Apellyasiya Şurasında qəbul edilən qərarlara əsasən həmin namizədlərlə əvvəl keçirilmiş müsahibələrin nəticəsinə dair müsahibə komissiyasının qərarları tam obyektiv və əsaslı hesab edilərək qüvvədə saxlanılıb.

# Mərkəzi İncəsənət Məktəbində Fikrət Əmirovun 100 illiyi münasibətilə konsert

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində görkəmli bəstəkar Fikrət Əmirovun 100 illiyi münasibətilə “Fikrət Əmirov adlı musiqi bulağı” konserti təşkil olunub.



Məktəbin nəzəriyyə ixtisası üzrə müəllimi, musiqişünas Nərgiz Kərimova bəstəkarın həyat və yaradıcılığından danışıb.

Konsert proqramında Fikrət Əmirovun “Reyhan“ mahnısı, “Kor ərəbin mahnısı”, “Sevgi rəqsi”, “Sevil” operasından Sevilin ariyası, “Min bir gecə” baletindən fraqmentlər, “Azərbaycan elləri”, “Laylay”, “Xatirə”, “Baharımsan” kimi əsrarəngiz əsərlər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Konsert boyunca Fikrət Əmirovla bağlı hazırlanmış videoslaydlar da nümayiş etdirilib.

Tədbirin fəxri qonaqları olan bəstəkarın qızı Sevil Əmirova həyat yoldaşı ilə birlikdə təəssüratlarını tamaşaçılarla bölüşüb və konsert proqramının təşkilinə görə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin heyətinə təşəkkürlərini bildiriblər.

Sonda Mərkəzi İncəsənət Məktəbinin direktoru, Əməkdar artist Əziz Qarayusifli tədbirin təşkilatçı və iştirakçılarına təşəkkür edib.

# Uzaqdakı “qoca” kukladan salam var

## Qax Dövlət Kukla Teatrı 50 yaşını qeyd etdi

Buludlu, boz-bulanıq halı ilə baş-başa qoyduq Bakını. Zatən günlərdi qaşqabağını tökmüşdü. Odur ki, təklifə yox demədik. Hərçənd payızın son günləri oralar da başqa cür sərt olur. Amma bunu da göz önünə gətirib yol aldıq təbiətinin şıltaqlığı, adamlarının saflığı ilə ad qazanan Qaxa.

Əlamətdar səbəb də vardı uzun yolu getməyə: sözsüz ki, yenə səhnə, sənət sevdası.

Bu qədər romantik başlanğıcın da ayrı səbəbi var: teatr içində gənclik romantikasını saxlayıb, ona sonsuz sevgi ilə bağlanan adamlardan savayı hamıdan asanlıqla imtina edir. Bu barədə yazının sonunda qeyd-eyhamım olacaq...

Bu il paytaxtdan kənarda fəaliyyət göstərən kukla teatrlarından ən qocamanının – Qax Dövlət Kukla Teatrının 50 illiyidir. Böyük fədailik və saf sevgi sayəsində dərnək kimi yaranıb, sonradan böyük səhnələrə yaşından-başından, boy-biçimindən də iri addımlarla yol alan bu bəbə teatrı yarım əsrdir ki, nəinki Qax və ətraf rayonlar, ümumilikdə ölkə sərhədlərini də aşaraq fərqli ölkə və səhnələrdə özünü göstərə bilib.

Özünün uşaq məsumluğunu, kuklaçılıq fədakarlığını və teatr sevgisini cansız əşyalara – taxtaya, dəmirə, parçaya, boyaya... qataraq, ipə-sapa yatmayan arzuların qol-qanadında 50 ildir yol gəlir.

Gəlin, keçilən bu uzun yola qısa nəzər salaq.



Qax Dövlət Kukla Teatrının uzun və mürəkkəb sənət yolu, əslində, 1971-ci ildə başlayıb. Gürcü əsilli rayon sakini, dünyanı teatr səhnəsi kimi işıqlı, insanları kukla personajları kimi məsum görən və içindəki uşağı ahıl yaşında belə qoruyub-saxlayan İsako Zeynalaşvili həvəskar gəncləri ətrafına toplayaraq dərnək yaradıb. İlk olaraq rayon Mədəniyyət evində fəaliyyət göstərən dərnəyin səs-sorağı nəinki ətraf rayonlara, hətta Bakıya da gedib çıxıb. Dərnək olmasına rəğmən istər repertuarındakı tamaşa sayına, istərsə də peşəkar ifaçılıq səviyyəsinə və tamaşaçı auditoriyasının genişlənməsinə görə qısa zamanda ad-san qazanıb. Beləcə, beş il sonra bu kollektivə Xalq teatrı statusu verilib.

1992-ci ildə isə yaradıcı kollektiv dövlət statusu alır, Qax Dövlət Kukla Teatrı olaraq böyük səhnə yolunda inamla addımlamağa başlayır. Üç-beş nəfər ilə açılan cığırda gedənlərin sayı artır. 1993-cü ildə kollektiv Bakıda təşkil olunan monotamaşalar festivalında uğurla iştirak edir.

1997-ci ildə teatr xaricə ilk qastrola gedir – qonşu Gürcüstan tamaşaçıları qarşısında çıxış etmək imkanı qazanır. 2003-cü ildə Bakıda keçirilən uşaq tamaşaları festivalında Qax Dövlət Kukla Teatrı da uğurla iştirak edir və diploma layiq görülür. 2005-ci il kollektivin tarixində əlamətdar bir hadisə ilə yadda qalır, Qax Dövlət Kukla Teatrı Azərbaycan Teatr Xadimləri İttifaqının “Qızıl Dərviş” mükafatını qazanır. Həmin il teatr doğma Qaxa daha bir mükafatla qayıdır. Türkiyənin İzmir şəhərində keçirilən VII Beynəlxalq Kukla və Kölgə Oyunları Festivalında ölkəmizi uğurla təmsil edən yaradıcı heyət nüfuzlu sənət yarışmasında Qran-pri qazanır. 2009-cu ildə kollektiv Estoniyanın Villandi, 2010-cu ildə isə Tallinn şəhərlərində keçirilən festivallardan diplomla qayıdır.

2010-cu ildə Mədəniyyət Nazirliyinin təşkil etdiyi II Respublika Kukla Teatrları Həftəsinin Qaxda keçirilməsində də məhz bu kollektivin uğurları mühüm rol oynayır. Qax kuklaçıları 2014-16-cı illərdə Rusiya Federasiyasının Həştərxan və Ukraynanın İvano-Frankovsk vilayətlərində keçirilən festivallara da qatılaraq teatr sənətimizi layiqincə təmsil edirlər. Kollektiv 2011 və 2013-cü illərdə keçirilən I və II Bakı Beynəlxalq Kukla Teatrları festivallarında da iştirak edərək diplomlara layiq görülüb.

Qax Dövlət Kukla Teatrı bu əlli il ərzində 150-dən artıq peşəkar səviyyəli tamaşa hazırlayaraq, balaca teatrsevərlərə təqdim edib ki, onların 80-dən çoxu məhz rəsmi dövlət statusu alandan sonra ərsəyə gəlib.

Teatrın uzun illər uğurlu fəaliyyəti diqqətdən kənarda qalmayıb, kollektivin iki üzvünə “Əməkdar mədəniyyət işçisi”, bir nəfərə “Əməkdar artist” fəxri adları verilib. Bir qrup əməkdaş Mədəniyyət Nazirliyinin fəxri fərmanına layiq görülüb.

Əsas məramı balacaları vətənpərvər, mənəvi-əxlaqi dəyərlərə sevgi ilə, həm də zövqlü tamaşaçı kimi formalaşdırmaq olan teatrın sənətə sevgisi üz-gözlərinə hopan kollektivi var. Rəhbərindən səhnə maşinistinədək hər birində Qax Kukla Teatrının – bölgənin yeganə kukla evinin sakini olmağın qürurunu hiss edirsən. Bir də ən çox diqqətimi cəlb edən ənənələrinə bağlılıq və ustadları İsakonun ruhuna sonsuz ehtiramları idi. Düşünürəm ki, məhz bu keyfiyyətləri olan sənət və səhnələr hər zaman yaşayacaq, hər zaman dolub-daşacaq...

İndi isə qayıdaq 14 noyabr 2022-ci ilə – qaxlı kuklaçıların 50 illik yubiley tədbirinə.






Biz teatra çatanda artıq saat 12-ni keçmişdi. Sarı, çəhrayı, narıncı yarpaqların ağaclardakı son rəqslərini – həzin mehdə süzmələrini günəşin payıza inad səxavətində izləyə-izləyə teatrın həyəti önündə dayanırıq. Darvazanın üstündəki böyük lövhə – “50-ni aşırdıq, 100-ə nə qaldı?!” diqqətimi həmən çəkir. İçəri keçəndə sağ və sol dəmir hasarları bəzəyən rəngarəng şar və şəkillər, binanın həyətindəki əlvan geyimli kollektivin həyəcanlı var-gəli adamı heyran edir.

Uzaqdan tanış səs eşidirəm. Özünəməxsus mehribanlığı ilə teatrın direktoru, uzun illər mədəniyyət, yazı-pozu sahəsində tanıdığım, bir neçə aydır da Qax Dövlət Kukla Teatrının direktoru kimi əzmlə çalışan Seymur Vəliyevin səsini eşidirəm: “Ay, belə həmişə siz gələsiz. Balam, gözümüzü nə yaman yollarda qoydunuz...” deyib, əlindəki kağızları qoltuğuna vuraraq iri addımlarla bizə tərəf gəlir. Eyni sevinc və məmnunluq kollektiv üzvlərinin də üzünə hopmuşdu.

Tədbirin başlamasına bir neçə saat qaldığından biz də onların həyəcanına qoşulub, vaxtı iplə dartdıq.

Səliqə-sahmanı ilə gözoxşayan, aparılan cari təmir-bərpa işləri ilə öz uçuq-sökük dünəni ilə sağollaşan teatrın tamaşa salonu, butaforu, sexləri, rekvizit otaqlarını gəzdikcə, adam istər-istəməz sevinir. İşləmək həvəsi, bundan da öncə teatrın yaşaması və özünün yeni dövrünə qədəm qoyması 50 yaşlı kukla kimi, bütün qoca-cavan kuklaçıları, kuklasevərləri də xoşbəxt etmişdi.

Hə, onu da deyim ki, qaxlı teatrsevərlərin son zamanlar unudulmaqda olan vacib vərdişləri də var. Tədbirə təxminən bir saat qalmasına rəğmən artıq zaldakı yerlərini tutub, səssizcə anın səfasını sürürlər. Maraqla yerli və gəlmə qonaqları, görkəmi dəyişmiş salonu, səhnəni gözdən keçirirlər. Zaldakı intizar və maraq səhnə arxasına da sirayət edir. Aparıcı da, direktor da, baş rejissor da gah qonaq siyahısını gözdən keçirir, gah çıxışçıları dəqiqləşdirir, gah da səhnəciklər üçün növbəsini gözləyən qonaq teatrların nizamını izləyirlər. Kuklaçılar da uşaq kimi bağlı pərdənin sağ-solunu xəfifcə aralayaraq salonu gözdən keçirir, öz aralarında pıçıldaşırlar. Hiss olunur ki, həyəcandan lap balaca uşaq kimi bir yerdə qərar tuta bilmirlər.

Qısa salamlamadan sonra alqışların müşayiətində teatrın tarixi – dünəni və bu günü ilə bağlı videoçarxı izləyirik.

Mədəniyyət naziri Anar Kərimovun kollektivə təbrik məktubunu nazirliyin Teatr sektorunun müdiri Könül Cəfərova oxuyur.

Ardınca Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyevin, Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Azər Yusubovun təbriklərini eşidirik.

Teatrın keçdiyi yola nəzər salıb, onun bölgənin mədəni həyatında rolunu qeyd edən çıxışçılar kollektivə yeni yaradıcılıq uğurları arzulayırlar.

Kollektivə Azərbaycan Teatr Xadimləri İttifaqının Fəxri fərmanı da təqdim edilir. Sonra A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının, eləcə də Gəncə, Salyan kukla teatrlarının sazlı-sözlü təbrikləri dinlənilib, izlənilir. Qonşu kollektiv və sadiq dost kimi Yevlax Xalq teatrı da yubiley təbriklərinə qoşulur.

Son sözü ev sahibləri – teatrın direktoru Seymur Vəliyev və baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanov deyirlər. Qonaqlara təşəkkür edib, sevinclərini onlarla bölüşən teatr təmsilçiləri qarşıda duran məqsəd və vəzifələrindən, teatrın gələcək yaradıcılıq planlarından qısa söz açırlar. Kollektivə olan dıqqətin, tamaşaçı sevgisinin onlara böyük dayaq olduğunu, qaxlı teatrsevərlərin bu sənət ocağına böyük təəssübkeşliklə yanaşdıqlarını etiraf edirlər. Bundan sonra da Qax teatrının sorağının fərqli səhnələrdən gələcəyinin vədini də verdikdən sonra yeni tamaşalarını – “Biz mehriban ailəyik”i elan edərək səhnədən enirlər. Səhnə kuklaçılara verilir.

Osman Abdullayevin pyesi əsasında ərsəyə gələn tamaşanın quruluşçu rejissoru Yusif Abdurahmanov, quruluşçu rəssamı Mais Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyev idi.

Demək olar ki, bütün truppanın oynadığı tamaşada mövzu da, ifadə də, ideya da arzulanan idi: təki həmişə sülh və əmin-amanlıq olsun. Həm dünyada, həm meşədə (hadisələr orada cərəyan edir), elə həm də teatrda. Sözsüz ki, bu da kimdən asılıdır? O teatrda çalışan rəhbərdən nəzarətçiyə – hər kəsdən.

Sizli-bizli hamını mehriban, bərabər və səmimi olmağa səsləyən “Biz mehriban ailəyik” və ertəsi gün sırf qonaqlar üçün nümayiş olunan “Xeyir və Şər” tamaşaları barəsində, ümumən qax və qaxlılar haqqında növbəti yazı-təəssüratımda ətraflı söz acacağam.

Sonda qayıdıram əvvəldə söz etdiyim qeyd-eyhama. Teatr nüvəsində fədakarlıq və sevgi barındıran sirr dolu bir məkandır. Elm, texnika nə qədər inkişaf edib, insan oğlu nə təhər icadlar etsə də, teatrın mistik gücü, cəzbetmə qabiliyyəti itməyəcək. Ola bilər ki, say azalıb, həlqə daralacaq, amma nə qırılacaq, nə də nizam pozulacaq. Fərdlər gedib nəsillər bir-birini əvəz eləsə də, teatr ona sevgi ilə, özü də tapınacaq qədər bağlı insanlarsız qalmayacaq. Sizlər və bizlər olmasaq da, səhnə, sənət olub və olacaq. Odur ki, sadəcə, teatrı sevək və ona xidmət edək. Bütün olub-olacaqları düşünmədən. Çünki sonunu düşünən qəhrəman olmur. Heç teatr da bəsit qəhrəmanları, “yel dəyirmanları ilə döyüşən cəngavərləri” sevmir...

**Həmidə Nizamiqızı**
**Qax-Bakı**

Rəhilə Cabbarova – 100

# Xalq yaradıcılığı evindən peşəkar opera səhnəsinə

Azərbaycan opera ifaçılığı sənətində adı hörmətlə çəkilən sənətkarlardan biri də Əməkdar artist Rəhilə Cabbarovadır. Müğənni peşəkar səhnədə biri-birindən maraqlı obrazlarda çıxış edib. Eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olub, gənclərin opera sənətini sevməsi və yetişməsi üçün əlindən gələni əsirgəməyib. Bu il sənətkarın anadan olmasının 100 illiyidir.



Rəhilə Muxtar qızı Cabbarova 24 noyabr 1922-ci ildə Tiflis şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərsə də, gənclik illəri qanlı-qadalı II Dünya müharibəsi illərinə təsadüf etdiyinə görə arzuladığı musiqi sahəsində təhsil ala bilmir. Müharibə zamanı hərbi xəstəxanada işə düzəlir. Müharibə başa çatdıqdan sonra arzusunu gerçəkləşdirmək istəyir. Xalq yaradıcılığı evində işə başlayır, sonra Gürcüstan Dövlət Mahnı və Rəqs Ansamblının solisti olur.

1947-ci ildə ailəsi Bakıya köçür. Rəhilə təzə-təzə isinişdiyi kollektivdən ayrılmalı olur. Ailəsinin məsləhəti ilə sənədlərini Azərbaycan Dövlət Konservatoriyasına (indiki BMA) verir. Üçüncü kursda oxuyarkən istedadı görkəmli opera müğənnisi Şövkət Məmmədovanın diqqətini çəkir. Onun təklifi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına solist götürülür. Beləliklə, tale gənc müğənninin üzünə gülür. Professional sənət yolunda ürəklə addımlamaq üçün belə bir sənətkarın xeyir-duasını alır. Bu həm də onda özünəinam hissi aşılayır.

Araşdırmalarda qeyd edilir ki, gur və təmiz mezzo-soprano səsi olan Rəhilə Cabbarova teatrda tamaşaya qoyulan Azərbaycan və dünya bəstəkarlarının opera nümunələrində əsas partiyaları ustalıqla ifa edib. O, Xanəndə qız ("Koroğlu" – Ü.Hacıbəyli), Gülüş ("Sevil" – F.Əmirov), Maddalena, Flora Bervua, Azuçena ("Riqoletto", "Traviata" və "Trubadur" – C.Verdi), Suzuki ("Madam Batterflyay" – C.Puççini), Amneris ("Aida" – Jorj Bize), Polina və Mlovzora ("Qaratoxmaq qadın" – P.Çaykovski), Lyubaşa ("Çar gəlini"– N.Rimski-Korsakov) və s. partiyaları yüksək professionallıqla oxuyub. Onun qabiliyyəti sənətsevərlər tərəfindən maraqla qarşılanıb.

Opera ifaçılığı sahəsində nailiyyətlərinə görə əməyi yüksək qiymətləndirilən sənətkar 1958-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülür. Ömrünün müdrik çağlarında, 1971-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna dəvət olunan müğənni sənətin sirlərini gənclərə sevə-sevə öyrədir.

Qeyd edək ki, Rəhilə Cabbarova kinoda da özünü sınayıb. 1958-ci ildə "Kölgələr sürünür" filmində epizodik bir rola çəkilir. Maraqlıdır ki, filmdə onun canlandırdığı Cahan obrazı yaşca Rəhilə xanımdan xeyli böyük olub. 36 yaşlı Rəhilə Cabbarova yaşlı professor Sərdarlının həyat yoldaşı rolunda, qızı Leyla rolunda isə aktrisadan iki yaş böyük Leyla Bədirbəyli çəkilib. Filmdə Cahan cəmi üç-dörd epizodda görünür. Belə ki, kürəkəni Cavadovun saxtakarlıqla dolu namizədlik dissertasiyasının müdafiəsinə getmək istəməyən ərini dilə tutarkən, ata-qız arasında başlayan və tez keçən konfliktdə övladının tərəfini saxlayarkən. Bir də bu əhvalatın davamı olan epizodlarda. Sənətşünaslar qeyd edirlər ki, filmdə aktrisa nə qədər qrimlənsə də, yaşının öz qəhrəmanından xeyli az olması diqqətə çarpır. Bütün bunlara baxmayaraq, Rəhilə Cabbarova Cahan rolunu uğurla oynayıb.

1970-ci ildə F.Əmirovun "Sevil" operası əsasında film lentə alınanda Gülüş partiyası müğənniyə həvalə edilib.

Maraqlı ifaçılıq və pedaqoji fəaliyyəti ilə mədəniyyət tariximizdə iz qoyan Əməkdar artist Rəhilə Cabbarova 2 dekabr 2002-ci ildə, 80 yaşında vəfat edib.

**Savalan Fərəcov**

Hüseyn Cavid – 140

# "Səma şairi"nin qalib ruhunun dolaşdığı məkan

Hazırda bəşəriyyətin bəlkə də hər zamankından daha çox sülhə, əmin-amanlığa ehtiyacı var. Bu il 140 illiyini qeyd etdiyimiz dahi şair-dramaturq Hüseyn Cavid (1882-1941) bütün yaradıcılığında bəşəriyyəti əmin-amanlığa, birliyə çağırıb, dünyanın xilasının sevgiyə, mədəniyyətə bağlı olduğunu irəli sürüb. Müəllifin "Peyğəmbər" dramındakı "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü" misraları insanlıq var olduqca öz aktuallığını qoruyacaq...

Bu günlərdə mədəniyyəti qılıncdan daha kəskin, daha təsirli hesab edən ədibin Bakıdakı ev-muzeyində olduq. Şəxsiyyəti yaradıcılığı ilə düz mütənasib olan sənətkarın estetik zövqü və dünyagörüşü barədə müəyyən bilgi verən eksponatlarla tanışlıq bizdə unudulmaz duyğular yaratdı.

Muzeyin girişində Xalq rəssamı, heykəltəraş Ömər Eldarovun hazırladığı və əsli paytaxtımızın Hüseyn Cavid prospektində ucalan möhtəşəm "Cavid abidəsi"nin gips maketi ilə qarşılaşırıq. Abidənin qoyulduğu hissə ilə üzbəüz divarda "Cavid planeti" adlı lövhə asılıb. Lövhənin yanında verilmiş mətndə qeyd olunur ki, Beynəlxalq Astronomiya İttifaqı 1997-ci il iyunun 20-də Ukrayna alimi Nikolay Çernıxın kəşf etdiyi 6262 nömrəli kiçik planetə Cavidin adını verib.

Hüseyn Cavidin Ev-Muzeyinin baş direktoru, filologiya üzrə elmlər doktoru, Əməkdar mədəniyyət işçisi Gülbəniz Babaxanlı ilə həmsöhbət oluruq. Muzey haqqında məlumat verən direktor bildirir ki, bir zamanlar Cavid ailəsinin yaşadığı mənzilin yerləşdiyi bina Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə 1898-1901-ci illərdə tikilib. Qızlar gimnaziyası üçün tikilsə də, binanın birinci və ikinci mərtəbələri 1920-1930-cu illərdə "Darülmüəllimin gimnaziyası" (oğlanlar üçün pedaqoji məktəb) kimi fəaliyyət göstərib. Həmin məktəbin müəllimlərinə binanın üçüncü mərtəbəsində qalmaq üçün yer verilib. Cavid də həmin məktəbdə dərs dediyi üçün ailəsi ilə birlikdə 1920-1937-ci illərdə bu binada yaşayıb. Nazirlər Kabinetinin 10 iyul 1995-ci il tarixli qərarı ilə Hüseyn Cavidin Ev-Muzeyi yaradılıb.

Direktor vurğulayır ki, mədəniyyət ocağı uzun müddət AMEA-nın tərkibində həm muzey, həm də elmi tədqiqat mərkəzi kimi fəaliyyət göstərib: "Bir müddət öncə Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Hüseyn Cavidin Ev-Muzeyi AMEA-nın balansından çıxarılaraq Mədəniyyət Nazirliyinin tabeliyinə verildi. Mədəniyyət naziri cənab Anar Kərimov muzeyimizdə olarkən elmi fəaliyyətimizlə tanış oldu və muzeyin elmi statusunun saxlanılacağını bildirdi. Bu, bizi çox sevindirir. Biz yenə də muzeyin fəaliyyətini elmi səviyyədə davam etdirəcəyik".

### "Dünya qoca bir səhnə demək..."

Gülbəniz xanımla söhbətimizi yekunlaşdırıb muzeyin eksponatları ilə tanış oluruq. Bələdçimiz, muzeyin fond müdiri Cəmilə Rzayeva eksponatlar haqqında məlumat verir. Deyir ki, muzeydə qorunan 12 minə yaxın eksponatın 700-ü nümayiş olunur. Bunların içərisində ədibin əlyazmaları, Cavidlər ailəsinə məxsus məişət və geyim əşyaları, Hüseyn Cavidin müxtəlif illərdə çap olunmuş əsərləri, şəxsi kitabları, ailə fotoları, dram əsərlərinin tamaşalarından proqram, afişa və fotolar, Ərtoğrol Cavidin istifadə etdiyi kitablar, bəstələdiyi musiqi əsərlərinin notları, Turan Cavidin fəaliyyəti ilə bağlı materiallar və s. var. Hüseyn Cavidin yazı masası, əsası, Mişkinaz xanıma məxsus tikiş maşını, radioqəbuledici, ailənin yemək masası və bir çox eksponatlar ekspozisiyada əsas yer tutur.



Muzeyin giriş otağında sanki səhnəni xatırladan yarımaçıq pərdələrlə dekor edilmiş lövhədə Cavidin pyeslərinin məşhur xəttat Seyfəddin Məmmədvəliyev tərəfindən qoz ağacından qabartma və oyma üsulu ilə adları yazılıb. Və belə bir başlıq verilib: "Dünya qoca bir səhnə demək".

Pyeslərin adlarının aşağısında divarboyu Azərbaycan səhnəsinin müxtəlif aktyor nəsillərinin canlandırdığı Cavid qəhrəmanlarını əks etdirən şəkillər sıralanıb.

Muzeydə ailənin hər bir üzvünün təsvir edildiyi süjetli xalçalar və mərmər büstlər var. Xalçaların müəllifi xalçaçı-rəssam Afaq Kərimova, büstlərin müəllifi isə Xalq rəssamı Ömər Eldarovdur.

Mişkinaz xanıma məxsus tikiş maşını muzeyin maraqlı eksponatlarındandır. Bu alət ağır illərdə ailənin dadına çatıb. O dönəmdə Mişkinaz xanımın dərzi kimi fəaliyyət göstərməsi sayəsində ailə öz dolanışığını təmin edib. Qanlı-qadalı illərdə onu işlədiyi fabrikdən çıxarırlar. Lakin ev şəraitində də olsa, paltar tikməyə davam edir.

Cavidin şəxsi əşyalarının qorunduğu vitrində 2 pensne (gözlük), cib saatı və Sibirdə məzarından götürülmüş bir ovuc torpaq nümayiş olunur.

Muzeydə dahi şairin tək oğul yadigarı, şair, rəssam, musiqiçi Ərtoğrol Cavidə (1919-1943) aid eksponatlar da qorunur. Ərtoğrol əsgərlikdə olarkən öz sevimli müəllimi Üzeyir Hacıbəyliyə yazırdı: "Hörmətli müəllimim Üzeyir bəy. Mən buradan anam və bacıma heç cür kömək edə bilmirəm. Ailəmiz başsız qalıb. Ailənin maddi ehtiyaclarını qarşılamaq üçün sizdən xahiş edirəm ki, bacım Turan Cavidi işlə təmin edəsiniz". Məktubu oxuduqdan qısa müddət sonra Üzeyir Hacıbəyli Turan Cavidi radioda işlə təmin edir...

Ərtoğrol 24 yaşında ağır xəstəlikdən vəfat edib. Onun əsərləri və yarımçıq əlyazmaları muzey tərəfindən kitab halında çap etdirilib, əsərlərindən ibarət disk buraxılıb.

### "Son yay"

Muzeyin ən maraqlı guşələrindən biri də hazırda Hüseyn Cavid ailəsinin eksponatlarının sərgiləndiyi Pedaqoji məktəbin direktoru, repressiya qurbanı Pənah Qasımovun (1881-1939) otağıdır. Bu otaqda Ərtoğrol Cavidə aid olan masa muzeyə gələn hər kəsin diqqətini xüsusilə cəlb edir. Masada vallar, musiqi ilə, şahmatla bağlı kitablar, lüğətlər, Ərtoğrolun əlyazmaları, dama və şahmat taxtaları, portfeli və s. nümayiş olunur. Otaqda həmçinin Mişkinaz xanımın mətbəx əşyaları da sərgilənir. Həmin əşyalarla tanışlıq zamanı bələdçimiz maraqlı bir əhvalat danışır: "Cavid əfəndinin ayaqqabılarından biri cırılır. Mişkinaz xanım ayaqqabını yamatdırmaq üçün ustanın yanına aparır. Bu zaman görür ki, nakam şairimiz Mikayıl Müşfiq də öz ayaqqabısını yamatdırmağa gətirib. Daha sonra M.Müşfiq Cavid əfəndi ilə görüşəndə deyib ki, ayaqqabımı yamatdırmağa gedəndə Mişkinaz xanımı gördüm. Ondan utandığım üçün ayaqqabımı gizlətdim. Cavid isə Müşfiqə belə cavab verib: "İnsanın alnı yamaqlı olmasın. Ayaqqabısı yamaqlı olsa da olar. Sən buna görə narahat olma...".

Divardan tanınmış rəssam Ənvər Əliyev tərəfindən işlənmiş çox maraqlı bir tablo da asılıb. "İblis" faciəsinin tamaşaya hazırlıq prosesində Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Hənəfi Terequlov, Ərtoğrol Cavid, Pənah Qasımov və Müslüm Maqomayev (baba) təsvir olunublar. Xalq rəssamı Altay Hacıyevin işlədiyi "Son yay" adlı tabloda isə H.Cavid, M.Müşfiq, Ə.Cavad, R.Rza, Ə.Məmmədxanlı və onun bacıları Arifə ilə Həbibə Məmmədxanlılar yer alıb.

Cavidlər ocağı ilə tanışlığımız başa çatır. Ancaq heç ayrılmaq istəmirik, daha doğrusu, ayrılmaq çətinləşir. Çünki qalib şairin ruhunun dolaşdığı bu məkanın ayrı bir cazibəsi var. Cavidin dövrü çox amansız olsa da, şairin ömrünü yarıda kəssə də, yaratdığı bənzərsiz əsərlər onu əbədi qalib edib.





### Daim 23:20-ni göstərən saat...

Cavid ruhlu muzeyin növbəti otağına doğru addımlayırıq. Ekspozisiyalar içərisində ilk olaraq yemək masası diqqətimizi çəkir. Bələdçimizdən öyrənirik ki, şair masanın siyirmələrində əlyazmalarını saxlayırmış. 1937-ci ilin 4 iyun gecəsində Cavidin evinə girib axtarış aparan qalstuklu qatillərin süfrənin altında siyirtmə ola biləcəyi ağıllarına gəlməyib və bu xoş təsadüf nəticəsində ədibin əlyazmalarının bir qismi beləcə xilas olub. Cavid evindən həmin gecə aparılıb, iki il Bayıl və Keşlə həbsxanasında saxlanılıb. 1939-cu ildə isə Sibirə sürgün edilib. Uzun illərin mənəvi-psixoloji təzyiqlərindən sonra səhhətində problem yaranan şair 1941-ci il dekabrın 5-də İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko qəsəbəsində vəfat edib. Hüseyn Cavid gecə evdən aparıldığı zaman yataq otaqlarında olan saat həyat yoldaşı Mişkinaz xanım tərəfindən elə həmin vaxtda – 23:20-də dayandırılıb. Ailənin xoşbəxtlik və səadəti də elə o saatla birlikdə dayanıb...

Bu məqamda Mişkinaz Cavidin divardan asılan portreti diqqətimizi çəkir. Xalq rəssamı Oqtay Sadıqzadə tərəfindən 1992-ci ildə yağlı boya ilə çəkilmiş əsərdə kədərli gözlər acı taledən, nisgildən soraq verir. Portretin altında isə dahi şairin xanımına yazdığı kiçik məktublar və Mişkinaz xanımın Cavidlə bağlı xatirələrindən bir parça verilib: "Biz 1918-ci ilin avqust ayında evləndik. Çox kiçik, xudmani toy məclisi oldu. Toydan bir-iki gün sonra Cavid mənə dedi ki, axı mən hərdənbir cızma-qara edirəm, gərək mənim ilk oxucularımdan biri də sən olasan. Mən onun oxucusu ola bilməzdim, çünki savadım yox idi. Cavid mənə dərs deməyə başladı...".

Ailənin şəxsi əşyalarının qorunduğu şkafda Mişkinaz xanımla Cavidin üzükləri, şairin tez-tez istifadə etdiyi geyimləri, eynəyi, dərmanları və ətirlər saxlanılır.

### "Faciə otağı"

İndi isə digər otağa keçirik. Bələdçinin məlumatından duruxuram: "faciə otağı"! Bura vaxtilə ailənin yataq otağı olub. Hüseyn Cavid taleyinin faciəsinin məhz bu otaqdan başladığı üçün qızı Turan Cavid bu məkanı "faciə otağı" adlandırıb. Otağın divarında Xalq rəssamı Oqtay Sadıqzadə tərəfindən çəkilmiş "Qara yazı" adlı tablo asılıb. Repressiyaya məruz qalmış Azərbaycanın ziyalı və sənət adamları – Hüseyn Cavid, Pənah Qasımov, Abbas Mirzə Şərifzadə, İdris Axundzadə, Mikayıl Müşfiq, Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad. Onlar repressiya zamanı qeydiyyata alındıqları sıra nömrələri ilə təsvir olunublar.

Daha bir rəsm əsəri – "Zordan üstün". Mərhum karikaturaçı rəssam Vaqif Ucatayın bu əsəri həm Hüseyn Cavidə, həm də Azərbaycanın digər repressiya qurbanlarının xatirəsinə rekviyem kimi qəbul olunur.

Şairin iş masasına yaxınlaşırıq. Üzərində müəllifin əlyazması ilə "Azər" poemasından bir hissə yer alıb. Stulun yanındakı əsa, mürəkkəbqabı və qələm bir əsrə yaxındır ki, Cavidsiz qalıb...

1982-ci ildə Cavidin 100 illik yubileyi ilə əlaqədar ulu öndər Heydər Əliyevin təşəbbüsü və səyləri ilə şairin nəşi Sibirdən Vətənə gətirilib. Şairlə vida mərasimi keçirildikdən sonra doğulduğu Naxçıvana aparılıb. Divarda Cavidin cənazəsinin Sibirdən Bakıya, buradan isə Naxçıvana aparılmasını əks etdirən fotolar və həbs edilən zaman çəkilmiş şəkilləri, eləcə də əl izlərini əks etdirən sənəd asılıb.

**Nurəddin Məmmədli**

# "Ey güli-süsən, səni bir Natəvan çəkmiş məgər?"

## Elmi Bərpa Mərkəzində Xan qızının 190 illiyinə həsr olunmuş tədbir

Görkəmli şair, xeyriyyəçi, adı mədəniyyət paytaxtımız Şuşa şəhəri ilə birgə xatırlanan Xurşidbanu Natəvanın (1832-1897) anadan olmasının 190 illiyi ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur.

Noyabrın 15-də Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində Xan qızının yubileyinə həsr olunan "Ey güli-süsən, səni bir Natəvan çəkmiş məgər?" adlı tədbir keçirildi.

Tədbirdə əvvəlcə "Uzun ömrün akkordları" (1981) filmindən dahi Üzeyir bəylə Natəvan obrazlarının yer aldığı kadrlar nümayiş olundu. Mərkəzin baş mühafizi Pakizə Almazova çıxış edərək tədbir haqqında məlumat verdi.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi, professor Raqub Kərimov "Xurşidbanu Natəvan və Qarabağ ədəbi mühiti" mövzusunda çıxış etdi. Diqqətə çatdırıldı ki,




dövrünün tanınmış alimlərindən Şərq poetika sənətinin incəliklərini öyrənən Xurşidbanu Füzuli şeirlərinin vurğunu olub, onun ədəbiyyatımız tarixində yaratdığı və sonrakı nəslə miras qoyub getdiyi ənənələri layiqincə davam etdirib. Xan qızı "Məclisi-üns" ədəbi birliyinə başçılıq etdiyi müddətdə ədəbi ictimaiyyəti ətrafına toplayaraq böyük bir yaradıcılıq məktəbi yaradıb. Bununla da Qarabağ ədəbi mühitinə yeni nəfəs, yeni ruh, yeni töhfə verib. Alim həmçinin Əlyazmalar İnstitutunun şəxsi arxiv materiallarında Natəvanla bağlı məlumatları da diqqətə çatdırdı.

Elmi Bərpa Mərkəzinin direktoru, Əməkdar mədəniyyət işçisi Zərifə Məlikova mərkəzin fəaliyyətindən söz açdı. Bildirdi ki, mərkəzdə Qarabağ azad ediləndən sonra oradan gətirilmiş bir çox tarixi eksponatlar üzərində işlər həyata keçirilib və bu istiqamətdə proses davam etdirilir. Xurşidbanu Natəvana məxsus geyimlər, Üzeyir bəyin skripkası, bəstəkarın anası Şirinbəyim xanımın geyim dəsti və s. qiymətli yadigarlar da bərpa olunan nümunələr sırasındadır.

Z.Məlikova ötən il Azərbaycan Dövlət Teatr Muzeyinin fondunda qorunan Natəvana məxsus əlyazmaların bərpa olunduğunu diqqətə çatdırdı. Dedi ki, mərkəzin Qrafika şöbəsinin müdiri Xatirə Tağıyeva və elmi işlər üzrə direktor müavini İranə İbrahimovanın iştirakı ilə Natəvanın şeirinin yeddi əlyazması və rəsmləri bərpa olunaraq muzeyə təhvil verilib. Bərdə Tarix-Diyarşünaslıq Muzeyindən təqdim olunmuş Natəvana məxsus "Kürdü" qadın üst geyimi və tumanlar nadir zərif eksponatlar kimi dəyərlidir.

Dövlət Teatr Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova bildirdi ki, bərpa olunan əlyazmaların bir neçəsi Milli İncəsənət Muzeyinin "Şuşa İli"nə həsr etdiyi sərgidə nümayiş olunur. Əlyazmalar Azərbaycana mərhum ədəbiyyatşünas, Moskva Dövlət Universitetinin professoru olmuş Əziz Şərifin oğlu Hüseyn Şərif tərəfindən muzeyə təqdim edilib. Hüseyn Şərifin sözlərinə görə, Natəvana məxsus tikmələrin bir hissəsi şairənin İrandakı qohumlarında saxlanılır.

Filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Mehdiyeva Aleksandr Dümanın (ata) Natəvana bağışladığı şahmat fiqurlarının birinin Milli İncəsənət Muzeyində, 4 ədədinin isə Milli Azərbaycan Ədəbiyyatı Muzeyində qorunduğunu qeyd etdi.

Muzeyin əməkdaşları Xatirə Tağıyeva və İranə İbrahimova əşyaların bərpa prosesindən söz açdılar və onların çıxışları bərpa işini əks etdirən videomateriallarla müşayiət olundu.

Tədbir Xurşidbanu Natəvanın həyat və yaradıcılığından bəhs edən filmdən parça və şairənin sözlərinə yazılmış musiqilərin fonunda diskussiyalarla davam etdi.

**Lalə Azəri**

# Üzündən təbəssüm əskik olmayan insan

Üzündən təbəssüm əskik olmayan, optimist təbiətli, nikbin insan olan Çingiz Ələsgərlini mən həmişə belə görmüşəm. Gülərüzlüyü, müsbət aurası ilə daim ətrafındakılara da müsbət enerji ötürür. Problemsiz insan olmaz, deyirlər. Bəzən elə insanlarla rastlaşırıq ki, onlar öz problemlərini açıqlamaqla çoxlarını narahat etdiklərinin fərqində olmurlar. Çingiz isə, problemi olanda belə, bunu ətrafdakılara hiss etdirmir. Kiçik bir girişdən sonra Çingiz Ələsgərli haqqında daha ətraflı yazımıza keçək.



Bunu portretə cizgilər də adlandırmaq olar.

2022-ci il noyabrın 19-u yazıçılıq qabiliyyətinə, istedad və bacarığına hörmətlə yanaşdığım teatrşünas və dramaturq Çingiz Ələsgərlinin 70 illiyidir. O, mənim yaradıcılığım haqqında xeyli sayda məqalə yazsa da, mən onun nə teatrşünaslığı, nə də dramaturgiyası haqqında heç vaxt heç nə yazmamışam. Buna heç ehtiyac da olmayıb. Çünki yazıçılıq onun, aktyorluq və rejissorluq isə mənim peşəmdir. O, daim mənim yaradıcılığımı izləyib, uğurlarıma sevindiyi kimi, mən də onun yaradıcılığını maraqla izləyib, uğurlarına sevinirəm.

Oxuculara bir sirr açım. Mən bəzən yazmağa ehtiyac duyub, ürəyim istəyən mövzulara müraciət edirəm. Deyilənə görə, pis də alınmır. Bu dəfə də belə oldu. Düşündüm ki, 40 ilə yaxın bir müddətdə mədəniyyət sahəsində yorulmadan çalışan, külüng çalan, qələmini bu günə qədər yerə qoymayan, zəhmətkeş və işgüzar bir insan haqqında yazmasam, düz olmaz. Mən Çingizi, yalan olmasın, hardasa dörd onilliyə yaxın bir müddətdir tanıyıram. Adətən, illər istər-istəməz insanları dəyişir, hətta bəzən tanınmaz edir. Amma bu dəyişmələr bizim yubilyara aid deyil. O, 40 il əvvəl necə idisə, bu gün də elədir. Zaman dəyişsə də o, dəyişmir.

Teatrşünas və dramaturq dostum bu günə qədər bir sıra idarə və təşkilatlarda müxtəlif vəzifələrdə çalışıb. Hazırda Akademik Milli Dram Teatrında ədəbi dram hissə rəhbəridir. Bildiyimiz kimi, bu vəzifədə vaxtilə Cəfər Cabbarlı və daha neçə-neçə yazıçılar çalışıb. Mən bu insanda harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq, heç vaxt təkəbbür, özündənrazılıq, özünü dartmaq və sair keyfiyyətləri görməmişəm. O, həmişə pozitiv, səmimi, təvazökar, zəhmətkeş, sadə, işinə məsuliyyətlə yanaşan, hər kəsə təmənnasız kömək əlini uzatmağa hazır olan, qeyd etdiyim kimi, üzündən heç vaxt təbəssüm əskik olmayan və ən əsası isə, qələminə heç vaxt xəyanət etməyən şəxsdir. Hamı onu belə tanıyır və məhz bu keyfiyyətlərinə görə dəyər verir.

Mənə qalınca, deməliyəm ki, bizim uşaqlığımız iki və ya üç küçə ilə bir-birindən ayrılan məhəllələrdə keçib. O, Təzəpir məscidinin yuxarı hissəsində, keçmiş Şors, indiki Başir Səfəroğlu küçəsindəki ata-baba mülkündə, mən isə məscidin aşağı hissəsində keçmiş Poluxin, indiki Murtuza Muxtarov küçəsindəki ata-baba mülkündə yaşamışıq. Evlərimiz yaxın olsa da biz, çox-çox sonralar, təsadüfən hansısa tədbir və ya tamaşada rastlaşıb, teatr sənəti haqqında söhbətləşmişdik. Həmin söhbət maraqlı olduğu üçün uzandıqca uzanmışdı. Mən bu söhbət əsnasında Çingizin teatr haqqında dərin bilik və savadını bəyənmişdim. Elə həmin vaxtdan, keçən əsrin 80-ci illərindən bu günə qədər dostluğumuz davam edir.

Bu gün Çingiz Ələsgərli imzası teatr və jurnalistika aləmində tanınan imzadır. Bu imza ilə dostum məqalələrində hər zaman dürüst olub, "düzü düz, əyrini əyri" yazıb və yazır.

Məhz bu səbəbdən həm mən, həm də qardaşım Cəfər yubileyimizlə bağlı yazılacaq kitablarımızın yazılışını ona həvalə etdik və peşman da olmadıq. Çingiz Ələsgərli mənim 65 illik yubileyimə "Sənətkar ömrü", qardaşım, Xalq artisti Cəfər Namiq Kamalın 70 illiyinə isə "Tale yazısı" kitablarını yazdı. Hər iki kitabda o, bizim yaradıcılığımızın oxşar və fərqli cəhətlərinin elmi-nəzəri araşdırmasını apararaq, maraqlı və oxunaqlı əsərlər ortaya qoydu. Elə buna görə də hər iki kitab çox qısa bir müddətdə geniş yayılaraq, oxucuların rəğbətini qazandı.

O, neçə-neçə aktyor və rejissor yaradıcılığına həsr olunmuş kitabların redaktoru və müəllifidir. Bunlardan "Məhərrəm Haşımov-100", "Hökümə Qurbanova-100", kuklaçı-aktyor Ruslan Həsənovun yaradıcılığına həsr etdiyi "Xəzana dönmüş ömür və ya kuklaçının nağılı", eləcə də Mükafat Abbasovun "Sevənləri aldatmayın", Mehdi Məmmədov və Zəfər Nemətovun "Rejissor işi haqqında" (yeni redaktədə), Azərbaycan televiziyasının veteran diktoru Natəvan Hacıyevanın "Televiziya mənim dünənim, bu günüm və sabahımdır", Xalq artisti Mərahim Fərzəlibəyovun 70 illiyinə "Səhnəyə sığmayan arzular" və daha neçə-neçə kitabı nümunə göstərmək olar.

Çingiz Ələsgərli neçə-neçə məqalə və elmi-nəzəri kitablarla yanaşı, dramaturgiya sahəsinə də müraciət edərək, maraqlı nəticələr əldə edib. Onun dram əsərlərinin hər biri qeyri-adi süjet xətti, obrazların bütövlüyü, dramatik vəziyyətin gərginliyi, konfliktin kəskinliyi, hadisələrin gözlənilməz düzüm xətti ilə rejissorların diqqətini cəlb edə bilib. Əgər səhv etmirəmsə, onun yazdığı dram əsərləri və etdiyi səhnələşdirmələrin sayı artıq 40-ı keçib və bu əsərlərin 35-i müxtəlif teatrlarda tamaşaya qoyulub. Hər dəfə onunla görüşəndə və ya zəngləşəndə o, mütləq yeni bir məqaləsi, ya kitabı və ya dram əsəri haqqında danışaraq, məni həm heyrətləndirir, həm də sevindirir. Çingiz daim yazır, çünki yazmaq artıq onun yaşam tərzinə çevrilib.

Mən də ona vaxtilə yaratdığım "İlham" miniatür teatrı və Şamaxıda yaratmaq istədiyim teatr üçün günümüzlə səsləşən, insanları düşündürən dramatik əsər və səhnəciklər sifariş etmişdim. O, çox qısa vaxtda mənim istədiyim mövzuları yazdı və çox da xoşuma gəldi. Hayıflar olsun ki, birinci teatr binasızlığın, ikinci isə laqeyd münasibətin qurbanı oldu. Amma mən hələ də ümidimi üzməmişəm. İnanıram ki, yaxın gələcəkdə ya "İlham" miniatür teatrında, ya da Şamaxıda yaranacaq teatrda Çingiz Ələsgərli ilə müştərək yaradıcılıq işimizi nümayiş etdirə biləcəyik. Sağlıq olsun.

Hazırda isə ölkəmizin bir sıra teatrlarında Çingiz Ələsgərlinin müəllifi olduğu və ya səhnələşdirdiyi əsərlər uğurla nümayiş olunur. Akademik Milli Dram Teatrında "Qətibə İnanc" (M.S.Ordubadinin "Qılınc və qələm" romanı əsasında), Bakı Bələdiyyə Teatrında "Şanlı Vətən" və "İmadəddin Nəsimi" (İ.Muğannanın ""Məhşər" romanı əsasında), İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Nağıl" və sair. Bildiyimə görə, daha iki və ya üç teatrda da əsərləri tamaşaya hazırlanır.

Çingizin 1993-cü ildə yazdığı "Şahidə çevrilən şəhid" əsəri bu yaxınlarda Xaçmaz Xalq teatrında tamaşaya qoyulub. Çingizin dediyinə görə, 2006-cı ildə çapdan çıxmış "Pyeslər" toplusuna daxil edilmiş dramatik novellanı teatrın rejissoru İlham Tağızadə oxuyub və əsərə yozum vermək istəyib. Haşıyə çıxıb qeyd etməliyəm ki, bu teatrın yaradılmasında mənim də müəyyən əməyim olub.

Tamaşanın ilk baxışına Çingiz məni də dəvət etmişdi, təəssüf ki, o vaxt çəkilişlərimlə bağlı iştirak edə bilmədim. Amma, eşitdiyimə görə, nümayiş yüksək səviyyədə keçib. Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev, digər vəzifə sahibləri, şəhid ailələri və qazilər də tamaşaya baxıblar. İcra başçısı sonda çıxış edərək teatrın kollektivinə uğurlar arzulayıb.

Çingiz Ələsgərli, qeyd etdiyim kimi, neçə-neçə maraqlı dram əsərinin müəllifidir. Yaxşı yadımdadır, "İxtira" adlı ilk pyesi 1986-cı ildə M.Davudova adına Mingəçevir Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdu. İlk qələm təcrübəsindən sonra o, "Milyon ilin sevgisi", "Şahidə çevrilən şəhid", "Düzlük", "Yabançı dostlar", "İnsan ömrünün nağılı", "Həyat oyun olanda", "Tənbəl Əhməd", "İbrət dərsi", "Ana intiqamı", "Qaçaq Kərəm", "Nəsrullah fenomeni", "Xacə şah", "Yeni ilə az qalanda", "İnam olanda", "Rüşvət", "Mənim müasirlərim", "Dörd payız yarpağı", "Sürpriz", "Rəssamın əbədi sevgisi" və digər əsərlər yazıb. Adları çəkilən əsərlərin əksəri, qeyd etdiyim kimi, müxtəlif teatrlarda səhnəyə qoyulub.

Teatrşünas və dramaturq kimi yaxşı tanınsa da, son dövrlərdə ssenari sahəsində də qələmini sınayıb. Onun Seyid Əzim Şirvaninin həyat və yaradıcılığı haqqında "Aləmdə səsim var" (Əzizə Cəfərzadənin eyniadlı əsəri əsasında) ssenarisi üzrə çəkilən film Azərbaycan Televiziyasında nümayiş olunub. İlk kino işindən sonra Çingiz Ələsgərli Nurəngiz Günün "Tanrı bəşər övladıdır" povesti əsasında "Qırmızı kərpicli evin Tanrısı" ssenarisini yazıb. Bu ssenari əsasında çəkilmiş film də Azərbaycan Televiziyasında nümayiş olunur.

Mən bu istedadlı insana, peşəkar teatrşünasa və dramaturqa, bu yaşına qədər hələ də layiq olduğu fəxri adın almamasına narahatlığımı bildirəndə, Çingiz bunu özünəməxsus sakitlik və təbəssümlə qarşıladı. Gülümsəyərək dedi ki, gec-tez haqq yerini tutar. Mənim isə bu yerdə Cabir Novruzun məşhur şeiri yadıma düşür. "Sağlığında qiymət verin insanlara...". Ələqədar təşkilatların, gec də olsa, yüzlərlə məqalə, onlarla kitab və dram əsərinin müəllifinə layiq olduğu fəxri adın verilməsində yardımçı olacaqlarına əminəm. Onu da yaxşı bilirəm ki, teatrşünas və dramaturq dostumuz bəziləri kimi hansısa qapıları döyən, kimlərəsə müraciət və şikayət edən deyil.

Çingiz Ələsgərlinin 70 illik yubileyində ona daha möhkəm cansağlığı, uzun ömür, olduğundan daha artıq pozitivlik, daha artıq təbəssüm arzu edirəm. Qoy gülərüzlülük heç vaxt onu tərk etməsin. Hələ neçə-neçə illər teatrşünas və dramaturq Çingiz Ələsgərli əsərləri ilə milli teatr prosesinin inkişafında öz sözünü desin.

**İlham Namiq Kamal**
**Xalq artisti, professor**

## Xatirə təqvimi 20-22 noyabr

### Azərbaycan

**20 noyabr 1910** – Yazıçı Məmmədəli Hüseyn oğlu Tarıverdiyev (1910-1985) Ordubad rayonunun Dəstə kəndində doğulub. "Kölgəli dağ", "Qəmküsar" pyeslərinin müəllifidir.

**20 noyabr 1930** – Tanınmış aktyor Gündüz Şəmsəddin oğlu Abbasov (1930-1995) anadan olub. "Onun böyük ürəyi", "Bir qalanın sirri", "Bizim küçə", "Dədə Qorqud", "Doğma sahillər" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. Hekayələr yazıb, tərcümələr edib.

**20 noyabr 1930** – Ədəbiyyatşünas, publisist, Əməkdar elm xadimi Qulu Qasım oğlu Xəlilov (1930 – 18.11.1995) anadan olub.

**20 noyabr 1935** – Xalq artisti, məşhur xanəndə, Qədir Çərkəz oğlu Rüstəmov (1935 – 14.12.2011) Ağdam rayonunda anadan olub. Muğam və xalq mahnılarımızın bənzərsiz ifaçısı olub. "Üzeyir ömrü" televiziya filmində Cabbar Qaryağdıoğlu rolunda çəkilib.

**20 noyabr 1956** – Azərbaycan teatr sənətinin görkəmli simalarından biri, Xalq artisti Kazım Ziya (Kazım Cəfər oğlu Kazımzadə; 21.3.1896 – 1956) vəfat edib. "Səbuhi" (1941), "Fətəli xan" (1947) və s. filmlərdə çəkilib.

**20 noyabr 2020** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (27.10.1937 – 2020) vəfat edib.

**21 noyabr 1926** – Ədəbiyyatşünas, yazıçı-publisist Nadir İsmayıl oğlu Vəlixanov (1926-1995) Şuşada anadan olub. Uşaq və yeniyetmələr üçün hekayə və povestlərin müəllifidir.

**21 noyabr 2020** – Xalq artisti Əjdər Qüdrət oğlu Həmidov (28.9.1953 – 2020) vəfat edib. Sumqayıt teatrında çalışıb, 1990-cı ildən Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**22 noyabr 1922** – Böyük bəstəkar, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922 – 20.2.1984) Gəncədə doğulub. "Min bir gecə" baleti, simfonik muğamlar ("Şur", "Kürd-Ovşarı", "Bayatı-Şiraz"), "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", "Sevil" operası və s. əsərlərin müəllifidir. Filmlərə musiqi yazıb.

**22 noyabr 1922** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (1922 – 12.12.2007) Bakıda anadan olub. Kitabları: "General", "Ləpədöyəndə", "Buruqlanlar", "Çəmbərəkənd balladası" və s.

**22 noyabr 1933** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (1933 – 12.7.2006) Şəkidə doğulub. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "İstintaq", "Ad günü", "Ölsəm, bağışla", "Təhminə", "Otel otağı" və s. filmlərə quruluş verib.

**22 noyabr 1933** – Yazıçı-jurnalist Firudin Balakişi oğlu Ağayev (1933-1995) Lerik rayonunda doğulub. Əsərləri əsasında "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" və s. filmlər çəkilib.

**22 noyabr 1938** – Xalq artisti, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (1938 – 27.8.2003) Salyan rayonunda anadan olub. "Böyük dayaq", "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar qalereyası yaradıb. Akademik Milli Dram Teatrında çalışıb.

**22 noyabr 1940** – Müğənni, skripka ifaçısı, Əməkdar incəsənət xadimi, professor Rauf Zülfüqar oğlu Adıgözəlov (1940 - 29.6.2002) anadan olub.

**22 noyabr 2012** – Xalq artisti, görkəmli aktyor Yaşar Məmmədsadıq oğlu Nuri (3.9.1951 – 2012) vəfat edib. Akademik Milli Dram Teatrında fəaliyyət göstərib. Televiziya tamaşalarında, filmlərdə yaddaqalan obrazlar yaradıb.

**22 noyabr 2021** – Əməkdar incəsənət xadimi, bəstəkar Asya Baxış qızı Sultanova (16.10.1923 – 2021) vəfat edib.

### Dünya

**20 noyabr 1910** – Dünya şöhrətli rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (9.9.1828 – 1910) vəfat edib. Əsərləri: "Ailə xoşbəxtliyi", "Hərb və sülh", "Anna Karenina", "Dirilmə" (romanlar), "Kreyser sonatası", "Kazaklar", "Hacı Murad" (povestlər), "Canlı meyit" (pyes) və s.

**20 noyabr 1927** – SSRİ Xalq artisti Mixail Aleksandroviç Ulyanov (1927–2007) anadan olub. Çəkildiyi filmlər: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Qaçış", "Voroşilov nişançısı" və s.

**21 noyabr 1694** – Fransız şairi, mütəfəkkiri və tarixçisi Fransua-Mari Volter (Fransua-Mari Arue François-Marie Arouet; 1694–1778) anadan olub. Əsərləri: "Edip", "Brut", "Zaira", "Sezar" tragediyaları, "Mikromeqas", "Kandid" fəlsəfi romanları və s.

**21 noyabr 1898** – Belçika sürrealist rəssamı Rene Fransua Gislen Magritt (René François Ghislain Magritte; 1898–1967) anadan olub.

**22 noyabr 1869** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1947) laureatı Andre Pol Qiyom Jid (André Gide; 1869–1951) anadan olub.

**22 noyabr 1916** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 12.1.1876 – 1916) vəfat edib. "Martin İden", "Dəmir daban", "Dəniz canavarı" və s. romanların müəllifidir.

**Hazırladı: V.Orxan**

# Bakı Xoreoqrafiya Akademiyasında "Xarıbülbül" rəqs müsabiqəsi keçirilib





Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Zəfər Gününə həsr edilmiş "Xarıbülbül" rəqs müsabiqəsi keçirilib.

BXA-nın tam orta təhsil, orta ixtisas təhsili və bakalavr pilləri üzrə şagird və tələbələri arasında keçirilən müsabiqədə rəqs nümunələrini prorektor, Xalq artisti Təranə Muradovanın sədrliyi ilə münsiflər heyəti (elmi katib, dosent Həbibə Məmmədova, İncəsənət fakültəsinin dekanı, Əməkdar artist Sənan Hüseynli, orta ixtisas təhsili pilləsinin direktoru, rəqqas-xoreoqraf Tahir Eynullayev, tam orta təhsil pilləsinin direktoru Beşarət Hüseynova, Baletmeyster kafedrasının müdiri, professor Lyudmila Həsənova, Milli və müasir rəqs kafedrasının müdiri, Xalq artisti Cəmilə Bayramova, Klassik rəqs kafedrasının müdiri Mayra Almazadə və tam orta təhsil pilləsinin xüsusi fənlər üzrə direktor müavini Kamilə Əliyeva) dəyərləndirib.

Müsabiqədə tam orta təhsil pilləsinin və orta ixtisas təhsili pilləsinin iştirakçıları tərəfindən təqdim edilən rəqslərin quruluşu şagird və tələbələr tərəfindən verilib. Eyni zamanda, bakalavr pillələrinin tələbələrinin ifasında nümayiş etdirilən rəqs nömrələrinin də quruluşunun əksər qismi ifaçı tələbələr tərəfindən qoyulub.

Münsiflər heyətinin üzvləri hər çıxış sonrası şagird və tələbələrə öz tövsiyələrini bildiriblər.

Müsabiqənin yekununda milli, klassik və müasir rəqs üzrə I, II, III yerlərlə yanaşı, "Simpatiya", "Xarıbülbül" və "Münsiflər" mükafatları da təqdim olunub.

BXA-nın tam orta təhsil pilləsi şagirdlərinin ifasında I yerin qalibləri klassik rəqs üzrə "Lirik rəqs", milli rəqs üzrə "Qaytağı", müasir rəqs üzrə "Cadugər" rəqsləri olub. II yerə klassik rəqs üzrə "Ruhun valsı", milli rəqs üzrə "Biz gəlirik", müasir rəqs üzrə "Azadlıq anı" layiq görülüb. III yer isə klassik rəqs üzrə "Zəfər gülü", milli rəqs üzrə "Zəfər rəqsi", müasir rəqs üzrə "Xarıbülbül" rəqslərinə verilib.

Tam orta təhsil pilləsi şagirdlərinin ifasında təqdim edilən "Qarabağ Azərbaycandır!" rəqsi "Münsiflər", "Acaruli" və "Kəpənək" rəqsləri isə "Xarıbülbül" mükafatlarına layiq görülüb.

Orta ixtisas təhsili pilləsi üzrə təhsil alan tələbələrin təqdimatında "İgidlər" rəqsi I yeri, "Qələbə" rəqsi II yeri, "Odlar Yurdu" rəqsi III yeri qazanıb. Tələbələrin ifasında "Bu gecə" rəqsi "Münsiflər", "Hardasan?" rəqsi "Simpatiya", "Qarabağ Azərbaycandır!" rəqsi isə "Xarıbülbül" mükafatına layiq görülüb.

Bakalavr təhsil pilləsinin tələbələri tərəfindən təqdim edilən "Qartal" rəqsi 1-ci, "Küçələrə su səpmişəm" xalq rəqsi 2-ci, "Qaval" rəqsi isə 3-cü olub. "Pasodobl flamenko" rəqsi "Simpatiya", "Hardasan?" rəqsi isə "Münsiflər" mükafatına layiq görülüb.

# Münəvvər Kələntərlinin 110 illiyi münasibətilə tədbir



*Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzində milli kinomuzun və teatr sənətimizin inkişafında müstəsna xidmətləri olan Əməkdar artist Münəvvər Kələntərlinin (1912-1963) anadan olmasının 110 illiyi münasibətilə tədbir keçirilib.*

Tədbirdə Suraxanı rayonu 114, 232, 327 nömrəli tam orta məktəblərin müəllim və şagird kollektivi iştirak edib.

Mərkəzin kiçik elmi işçisi Firəngiz Məlikbəyli qonaqları salamlayaraq, Münəvvər Kələntərlinin həyatı və yaradıcılığı haqqında danışıb. Qeyd edib ki, aktrisa Opera və Balet, Musiqili Komediya teatrlarında fəaliyyəti ilə yanaşı, 10-dək filmdə yaddaqalan obrazlar yaradıb. 1945-ci ildə çəkilən "Arşın mal alan" filmindəki Cahan xala obrazında olan mülayimlik, səmimiyyət, "Bəxtiyar"dakı (1956) Gülzar obrazındakı səmimiyyət, "Görüş"dəki (1955) Münəvvərə xas ötkəm xasiyyət, işini sevən, məsuliyyətli, lazım gəldiyi zaman sərt, bir o qədər mülayimlik nümayiş etdirməsi və s. kimi cəhətlər aktrisanın təbiətinə xas olan keyfiyyətlər idi.

Sonra Münəvvər Kələntərlinin rol aldığı "Arşın mal alan" və "Görüş" filmləri nümayiş olunub.

# Zalsburqda və Sofiyada Azərbaycan musiqiləri səslənib



Dünyanın klassik musiqi mərkəzlərindən biri, Volfqanq Amadey Motsartın doğulduğu Zalsburq şəhərində (Avstriya) dahi bəstəkarın adını daşıyan fondda Azərbaycan klassik musiqisi səsləndirilib.

Zəfər Gününə həsr olunan konsert Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təşkil olunub.

Tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Leyla Qasımova, Zalsburqda fəaliyyət göstərən konsulluqların təmsilçiləri, yerli ictimaiyyətin və Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən komitə sədri diqqətə çatdırıb ki, hazırda dünyanın 13 ölkəsində 19 Azərbaycan Evi fəaliyyət göstərir. Onlardan da biri Avstriyanın mühüm mədəni mərkəzlərindən olan Zalsburq şəhərindədir və fəaliyyəti ilə iki ölkə arasında mədəni əlaqələrə də töhfə verir.

Konsertdə Xalq artisti, professor Yalçın Adıgözəlovun dirijorluğu ilə Zalsburq Simfonik Orkestri çıxış edib. Proqramda Azərbaycan və Avstriya bəstəkarlarının əsərləri səslənib.




***

Bolqarıstanın paytaxtı Sofiyada da Zəfər Gününə həsr olunmuş təntənəli konsert keçirilib.

Azərbaycanın bu ölkədəki səfirliyinin təşkilatçılığı ilə reallaşan tədbirdə Bolqarıstan hökumətinin rəsmiləri, ictimaiyyət və mədəniyyət xadimləri, diplomatik korpusun, Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Konsertdən öncə çıxış edən səfir Hüseyn Hüseynov 2020-ci ilin Vətən müharibəsində əldə olun Zəfərin Azərbaycan tarixində müstəsna yeri haqqında söz açıb.

Konsertdə azərbaycanlı və bolqar sənətçilərinin ifasında iki ölkənin xalq və bəstəkar mahnıları səslənib. Azərbaycanı musiqi axşamında Əməkdar artistlər Sahib Paşazadə (tarzən), İlham Nəzərov (vokalçı) və beynəlxalq müsabiqələr laureatı Səidə Tağızadə (piano) təmsil ediblər.

# Cenevrədəki payız yarmarkasında rəqslərimiz nümayiş olunub



İsveçrənin Cenevrə şəhərindəki "Palexpo" sərgi mərkəzində təşkil edilən ənənəvi "Les Automnales" payız yarmarkası çərçivəsində bu ölkədə yaşayan müxtəlif xalqların nümayəndələri tərəfindən təqdimatlar olub.

Yarmarka zamanı Azərbaycan icmasının fəal üzvü Mariya Xanxoyskaya-Martiqnolinin rəhbərlik etdiyi "İrs" uşaq rəqs qrupu da çıxış edib. Cenevrədə yaşayan azərbaycanlıların övladlarından ibarət olan qrup Azərbaycan xalq rəqslərini məharətlə nümayiş etdirib. "İRS"in çıxışı izləyicilərin alqışları ilə qarşılanıb.

Azərbaycan incəsənətinin təqdimatı ölkəmizin BMT-nin Cenevrə Ofisi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin dəstəyi ilə gerçəkləşib.

# Daşkənddəki AMM-də milli rəqslərimizə dair ustad dərsləri



Özbəkistanın paytaxtı Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə mərkəzin nəzdindəki rəqs ansamblı və rəqs dərnəyinin uşaq və yeniyetmələri üçün milli rəqslərimizə dair ustad dərslərinə başlanılıb.

Ustad dərslərini AMM-in dəvəti ilə Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti, tanınmış rəqqasə Təranə Muradova keçir.

Qeyd edək ki, AMM-də 10 ildən çoxdur milli rəqslərmizə dair dərnək fəaliyyət göstərir və hər il yüzlərlə uşaq, yeniyetmə bu məşğələlərdə iştirak edir.

Mərkəzin nəzdində Azərbaycanın Əməkdar artisti, dost ölkədə milli rəqslərimizin təbliğinə töhfələr vermiş Kaykeb (Kövkəb) Əliyevanın adını daşıyan "Azərbaycan qızları" ansamblı da Özbəkistanda mədəniyyət, rəqs sənəti sahəsində keçirilən beynəlxalq tədbirlərdə, habelə Azərbaycan mədəniyyəti günlərində daim fəal iştirak edir.




İstanbulda Azərbaycanın 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərin ikinci ildönümü, "Şuşa İli" və görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

# Zəfərin ildönümü, "Şuşa İli" və Fikrət Əmirovun yubileyi

## İstanbul Ümraniyə Bələdiyyəsində tədbir

Tədbir Xarıbülbül Vizyon Teatr Dərnəyi və İstanbul Ümraniyə Bələdiyyəsinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdən əvvəl bələdiyyə binasının qalereyasında təşkil olunan "Xarıbülbül: Azərbaycan Zəfər sərgisi" açılıb. Mərasimdə bələdiyyə başqanı İsmet Yıldırım çıxış edib. Xarıbülbül Vizyon Teatr Dərnəyinin rəhbəri Kamalə Kamal, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) baş katibi Hülya Ağasoy, ölkəmizin İstanbuldakı baş konsulluğunun əməkdaşı Murad Balacayev Azərbaycanın tarixi Zəfəri, Şuşa və Fikrət Əmirov yaradıcılığı haqqında danışıblar.

Sonra iştirakçılar Qarabağ Zəfərini və Türkiyə-Azərbaycan qardaşlığını əks etdirən sərgiyə baxıblar. Sərgidə Lətifə Rafiqızının hazırladığı Azərbaycan və Türkiyənin milli geyimləri və əl işləri, azərbaycanlı rəssamlar Sadiq Babayev, Ceyran Səttarova, türkiyəli rəssam Canan Tepebaşının əsərləri yer alıb.

Tədbirdə Fikrət Əmirov, Qarabağ Zəfəri və Türkiyə-Azərbaycan qardaşlığını əks etdirən qısametrajlı filmlər də nümayiş olunub.

# 8 milyard olduq...

## Amma hələ dünyanın sonu deyil...

Yer kürəsində əhalinin sayı 2022-ci il noyabrın 15-də 8 milyard nəfərə çatıb. Bu barədə BMT-nin Əhali Fondu (UNFPA) məlumat yayıb.

Məlumatda diqqətə çatdırılır ki, Yer kürəsi əhalisinin son 1 milyard nəfər artımı cəmi 11 ildə gerçəkləşib. Bu, dünya demoqrafiyasında indiyədək olmuş ən sürətli artım tempidir.

Bununla belə, UNFPA-nın proqnozlarına görə, növbəti illərdə Yer kürəsi əhalisinin artım tempi nisbətən yavaşıyacaq. Ehtimal olunur ki, dünya əhalisi 9 milyard nəfərə 14,5 il sonra, 2037-ci ildə çatacaq. Həmçinin qeyd olunur ki, dünya əhalisinin 1970-ci ildən etibarən başlayan 1 faizdən çox (illik) artım tempi 2020-ci ildə ilk dəfə olaraq ildə 1 faizdən aşağı olub. Buna da əsas səbəb kimi pandemiya göstərilir.

UNFPA qeyd edir ki, dünya əhalisinin 2080-ci illərdə 10,4 milyarda çatacağına dair proqnozlara baxmayaraq, ümumi artım tempi azalır. Dünya əhalisinin üçdə ikisi məhsuldarlığı aşağı olan ərazilərdə yaşayır və əhali artımı əsasən yoxsul ölkələrin, xüsusən də Afrika dövlətlərinin payına düşür.

Fond hesab edir ki, əhali artımı ilə əlaqədar beynəlxalq ictimaiyyət dünyanın üzləşdiyi problemləri azaltmaq və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün effektiv həll yolları axtarmalıdır. Belə addımların reallaşdırılması üçün "dünyanı daha təhlükəsiz, dayanıqlı və inklüziv etmək" məqsədilə əhaliyə dəstək proqramlarına investisiyaların artırılması vacibdir.

Qeyd edək ki, dünya əhalisi 1 milyard nəfərə 1820-ci ildə (o dövrün təxmini hesablama və ölkələr üzrə mövcud siyahıyaalma göstəricilərinə görə) çatıb. Növbəti milyardlıq artım üçün yüz ildən çox vaxt lazım olub. 1927-ci ildə Yer kürəsi əhalisinin 2 milyard olduğu bildirilib.

İkinci Dünya müharibəsindəki kütləvi qırğınlar da nəzərə alınmaqla Yer kürəsi 3 milyard hədəfinə 33 il sonra, 1960-cı ildə çatıb. 4-cü milyard üçün isə cəmi 14 il lazım olub (1974).

13 il sonra, 11 iyul 1987-ci ildə Yer kürəsi əhalisinin sayı 5 milyardı keçib. Bu əlamətdar hadisə ilə əlaqədar 1989-cu ildə BMT İnkişaf Proqramının tövsiyəsi əsasında 11 iyul Dünya Əhali Günü (World Population Day) elan edilib.

Sonrakı milyardlar üçün 12 il gərək olub. 12 oktyabr 1999-cu ildə dünya əhalisi 6 milyard nəfərə, 31 oktyabr 2011-ci ildə isə 7 milyard nəfərə çatıb.

Dünya üzrə demoqrafik göstəricilərin onlayn sayğacı olan countrymeters.info saytının məlumatına görə, 16 noyabr 2022-ci il tarixində Yer kürəsi əhalisinin sayı 8 milyard 35 milyona çatıb. Bu ilin əvvəlindən dünya əhalisi 86 milyondan çox artıb.



Hazırda (16 noyabr tarixinə olan statistika) Çinin əhalisi 1 milyard 457 milyon, Hindistanın əhalisi 1 milyard 423 milyon nəfərdir. Bu iki ölkənin toplam əhali sayı (2 milyard 880 milyon) dünya əhalisinin 35 faizini təşkil edir. Üstəlik, daha sürətli artım tempi sayəsində 2023-cü ildə Hindistan Çinə çatacaq.

Əhali sayında sonrakı yerləri ABŞ (337 milyon nəfər), İndoneziya (282 milyon), Pakistan (232 milyon) tutur. İlk onluğa həmçinin Nigeriya (219 milyon), Braziliya (217 milyon), Banqladeş (169 milyon), Rusiya (146 milyon) və Meksika (133 milyon) daxildir.

İkinci onluqda Yaponiya (126 milyon nəfər), Efiopiya (123 milyon), Filippin (113 milyon), Misir (107 milyon), Vyetnam (100 milyon), Konqo (96 milyon), Türkiyə (88 milyon), İran (86 milyon), Almaniya (83 milyon) və Tailand (70 milyon) var.

Bu 20 ölkədə toplam 5,6 milyard insan – yəni dünya əhalisinin 70 faizi yaşayır.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 104 il əvvəl...

**19 noyabr 1918-ci ildə** Azərbaycan Milli Şurasının Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Xalq Cümhuriyyətinin geniş tərkibli Parlamentinin (Müəssislər Məclisi) çağırılması barədə qərar qəbul edilib. Parlamentin 120 deputatdan ibarət olması qərara alınıb: 80 yer müsəlman (azərbaycanlı) əhaliyə, 21 yer erməni əhalisinə, 10 yer ruslara, 4 yer milli azlıqlara (alman, yəhudi, gürcü, polyak), 5 yer neft sənayeçiləri və həmkarlar ittifaqlarına ayrılıb. Qərara əsasən, müsəlman fraksiyasının 44 nəfərini Milli Şuranın üzvləri təşkil etməli, 36 deputat əlavə olaraq şəhər və qəzalardan seçilməli idi. Xalq Cümhuriyyətinin Parlamenti 7 dekabrda fəaliyyətə başladı.

### 77 il əvvəl...



**20 noyabr 1945-ci ildə** Nürnberq şəhərində (Almaniya) faşist Almaniyasının ələ keçmiş rəhbərləri üzərində məhkəmə başlanıb. Beynəlxalq hərbi tribunal qarşısına Gerinq, Gess, Ribbentrop, Keytel, Kaltenbruner, Rozenberq kimi faşist liderləri cəlb olunmuşdu. 1946-cı il oktyabrın 1-də başa çatan məhkəmədə 12 nəfər barəsində ölüm hökmü (asılmaqla) çıxarıldı. Məhkəmənin qərarı 1946-cı il oktyabrın 16-da icra olundu. Dar ağacına çıxmaq istəməyən Gerinq 15 oktyabrda axşam kamerasında zəhər içərək intihar etmişdi.

### 63 il əvvəl...

**20 noyabr 1959-cu ildə** BMT Baş Assambleyasında "Uşaq hüquqları Bəyannaməsi" qəbul olunub. 1989-cu ilin həmin günündə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası qəbul olundu. 20 noyabr Dünya Uşaq Günü (Universal Children's Day) elan edildi.

### 31 il əvvəl...



**20 noyabr 1991-ci ildə** erməni silahlı qüvvələri Qarabağ münaqişəsi gedişində Azərbaycana qarşı ən böyük terror aktını həyata keçiriblər. Xocavənd rayonunun Qarakənd kəndinin səmasında içərisində Azərbaycanın dövlət və hökumət rəhbərlərinin olduğu "Mi-8" vertolyotu raketlə vurulub. Vertolyotda olan 22 nəfərin hamısı, o cümlədən dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, Baş nazirin müavini Zülfü Hacıyev, SSRİ xalq deputatları Vaqif Cəfərov, Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, DQMV prokuroru V.Plavski, Dağlıq Qarabağ münaqişəsi regionunda Rusiya və Qazaxıstanın müşahidəçilər qrupunun rəhbərləri, jurnalistlər həlak olmuşdu. Faciə ilə bağlı Azərbaycanda üçgünlük (21-23 noyabr) matəm elan edilib.

### 30 il əvvəl...

**21 noyabr 1992-ci ildə** Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının (YAP) təsis konfransı keçirilib. Təsis konfransında partiyanın məramnamə və nizamnaməsi qəbul olunub, rəhbər orqanları seçilib. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev açıq səsvermə əsasında yekdilliklə YAP-ın sədri seçilib.

### 26 il əvvəl...

**21 noyabr 1996-cı ildə** BMT-də ilk dəfə Dünya televiziya forumu keçirilib. Bu əlamətdar hadisə ilə bağlı BMT Baş Assambleyası (17 dekabr 1996) tərəfindən 21 noyabr – "Dünya Televiziya Günü" təsis edilib.

### 23 il əvvəl...

**18 noyabr 1999-cu ildə** İstanbuldakı "Çırağan" sarayında Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi ilə bağlı tarixi sənədlər imzalanıb. Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl BTC-yə dair hökumətlərarası sazişi, üç ölkənin rəhbəri, habelə ABŞ Prezidenti Bill Klinton və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev layihənin dəstəklənməsinə dair "İstanbul Bəyannaməsi"ni imzalayıblar. 2002-ci ildə inşası başlayan BTC 2006-cı ildə istifadəyə verildi.

### 20 il əvvəl...

**21 noyabr 2002-ci ildə** NATO-nun Praqa (Çexiya) sammitində yeddi ölkənin – Rumıniya, Bolqarıstan, Slovakiya, Sloveniya, Litva, Latviya və Estoniyanın alyansa dəvət olunması barədə qərar qəbul edilib. Qərara əsasən, sözügedən ölkələr 2004-cü ilin aprelində NATO-ya tamhüquqlu üzv qəbul olundular. Bu, 1999-cu ildə Çexiya, Macarıstan və Polşanın alyansa qəbul edilməsindən sonra NATO-nun Şərqə doğru növbəti genişlənməsi idi. NATO ölkələrinin sayı 26-ya, alyansın hüdudları isə Rusiya sərhədlərinə çatdı.

### 14 il əvvəl...

**21 noyabr 2008-ci ildə** İstanbulda Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan parlament nümayəndə heyətlərinin ikigünlük görüşünün yekunu olaraq Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) təsis edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3303
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641